QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 076 (6276) 30 aprel 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Azərbaycan regionun güclü sənaye mərkəzinə çevrilir

*İlham Əliyev: "Qarabağ zonasında mütləq belə müəssisələr yaradılmalıdır ki, insanları biz işlə təmin edək"*



Bax 2

## İkinci Dünya müharibəsi iştirakçılarına birdəfəlik maddi yardım veriləcək

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İkinci Dünya müharibəsində od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan...



Bax 4

## Vətən müharibəsində iştirak etmiş 405 qaziyə əlillik statusu verilib

Bax 5



İndiyədək 405 qaziyə əlillik təyinatı aparılıb. Trend xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsində "Əlilliyin ekspertizası və reabilitasiyası sahəsində qanunvericiliyin təkmilləşdirilməsi" mövzusunda keçirilən dinləmədə Əmək və əhalinin...

## Sahil Babayev: "Əlilliyin müəyyən olunması" meyarlarının yeni layihəsində bir sıra yeniliklər nəzərdə tutulur



Vətən müharibəsində yaralanmış hərbçilərin əlilliklərinin qiymətləndirilməsi sahəsində xeyli işlər görülüb. Artıq 405 qaziyə əlillik təyinatı aparılıb və proses davam edir. İndiyədək 17 qazi yüksək texnologiyalı protezlərlə təmin edilib, nazirliyin reabilitasiya müəssisələrində 105 qazi stasionar müalicə alır, 1200-dən çox qaziyə...

Bax 7

## Bayden "genosid" deyəcək, soroşçu təşkilatlar ölkəmizdə "işləməyə" davam edəcək



Beləliklə, gözlənilən olay baş verdi və əslində, heç bir real fəaliyyət planı olmayan baş soroşçu, sahib(-lər)inin tapşırığını yerinə yetirdi və "genosid" ifadəsini səsləndirdi. Bununla da, həm siyasi meydanda həm döyüş meydanında Azərbaycan-Türk birliyinə məğlub olaraq, amerikan-erməni birliyi bizlərə dil uzatdı və əslində, bununla da Türk birliyi qarşısında öz acizliyini nümayiş etdirdi. Fəqət, bizlər də bu hiddət doğuran məsələnin üzərindən sadəcə "mövzu...

Bax 12

## Azərbaycan Dövlət Neft Akademiyasında törədilən faciədən 12 il ötür



Bax 10

İyirmi birinci yüzillik bəşər sivilizasiyasının yüksək nöqtəsidir. Ağıl və idrakın sivil bir nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin...

## "Fransa artıq Minsk qrupunun həmsədri ola bilməz"



Bax 13

## "Kor kora kor deməsə, bağrı çatlar"



Bax 14

## PSJ-nin Ronaldo, Messi, Neymar planı



Bax 16

# Azərbaycan regionun güclü sənaye mərkəzinə çevrilir

*İlham Əliyev: "Qarabağ zonasında mütləq belə müəssisələr yaradılmalıdır ki, insanları biz işlə təmin edək"*

Azərbaycan dünyəvi dövlət olaraq bütün sahələrdə dinamik inkişafdadır. Xüsusilə də, dünyada sənayenin yeni modellərinin tətbiqi ilə inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir. Qlobal çağırışlarla uzlaşan sənaye parkları və sənaye məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər innovativ müəssisələrin yaradılması, ixracyönümlü məhsulların istehsalının genişləndirilməsi üçün yeni imkanlar açır. Xüsusilə də, son illər ölkəmizdə yaradılan sənaye park və məhəllələri bu sahədə fəaliyyət göstərən kiçik və orta sahibkarların dəstəklənməsinə, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına xidmət edir.

Məhz Azərbaycan Prezidentinin təşəbbüsü və dəstəyi ilə həyata vəsiqə alan aqroparkların yaradılması ölkə iqtisadiyyatında ən səmərəli iqtisadi model kimi həyata vəsiqə almaqla, ölkəmizdə fəaliyyət göstərən kiçik və orta sahibkarların dəstəklənməsinə, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına xidmət edir. Hazırda ölkəmizdə Sumqayıt Kimya Sənaye, Balaxanı, Qaradağ, Mingəçevir və Piralahı sənaye parkları, Sumqayıt Texnologiya Parkı, Yüksək Texnologiyalar Parkı və Mingəçevir Yüksək Texnologiyalar Parkı, Neftçala, Masallı sənaye məhəllələri fəaliyyət göstərir.







## Növbəti - Hacıqabul Sənaye Məhəlləsi fəaliyyətə başladı

Aprelin 20-də Prezident İlham Əliyevin Hacıqabula səfəri və səfər çərçivəsində açılışını etdiyi Hacıqabul Sənaye Məhəlləsi ərazisi və investisiya dəyərinə görə Azərbaycanın ən böyük müvafiq obyektidir. Prezident İlham Əliyevin iştirakı ilə Hacıqabul Sənaye Məhəlləsinin açılış mərasimi baş tutub. Dövlət başçısı əvvəlcə sənaye məhəlləsində yerləşən "Azərmaş" zavodu ilə tanış olub.

Məlumat verilib ki, bu müəssisə illik 1 500 vahid yük və xüsusi təyinatlı avtomobil istehsal etmək imkanına malikdir. Bildirilib ki, zavodda istehsal xətti yaxın iki ayda işə düşəcək.

Müəssisə Hacıqabul rayonunda 100 nəfərdən çox insanın məşğulluğunu təmin edəcək. Bu zavodda Özbəkistan və Rusiya ilə birgə layihələr icra olunacaq. Beləliklə, müəssisənin istifadəyə verilməsi rayonun iqtisadi inkişafı üçün böyük təkan olmaqla yanaşı, ölkədə avtomobil sənayesinin formalaşmasında mühüm rol oynayacaq.

Hacıqabul Sənaye Məhəlləsində yaradılan müəssisələrdən biri də "Elberg" tikinti materialları üçün avadanlıqların istehsalı zavodudur. Bu müəssisə Azərbaycanda ilk təcrübədir. Zavodla tanış olan dövlət başçısı müəssisəni işə saldı. Məlumat verildi ki, burada tikinti materialları - gips, əhəng, kərpic, alçipan və digər inşaat materialları istehsal edən zavodların layihələndirilməsi və quraşdırılması həyata keçiriləcək.

Öz növbəsində, dövlət başçısı bildirib ki, Hacıqabul Sənaye Məhəlləsinin inkişafı ilə bağlı əlavə göstərişlər verilib. Əlavə beş müəssisə yaradılacaq.

"2017-ci ildə mənim Sərəncamımla yaradılan bu Sənaye Məhəlləsi artıq beş müəssisəyə sahibdir. Onların açılışı bu gün olub. Bu müəssisələrə də on milyonlarla manat sərmayə qoyulub. Bu da dövlət tərəfindən irəli sürülən təşəbbüsdür. Biz sahəni müəyyən etdik, infrastruktur layihələri icra etdik, bütün kommunikasiyaları çəkdik, hətta anqarları da dövlət hesabına inşa etdik. Sahibkar da gəlib burada öz sərmayəsini qoyub və müasir səviyyəli məhsullar istehsal olunur. Bu məhsullar da daxili tələbatı təmin edəcək", - deyə İlham Əliyev qeyd edib.

Qeyd edək ki, Hacıqabul Sənaye Məhəlləsində ümumilikdə müxtəlif istehsal sahələri üzrə 10 müəssisə qurulub və sahibkarlar tərəfindən bu layihələrin icrasına 45,44 mln. manat investisiya cəlb olunub. Sənaye Məhəlləsində mövcud layihələr üzrə 364 iş yerinin yaradılması nəzərdə tutulub.

Göründüyü kimi, ölkədə son illər həyata keçirilən kompleks tədbirlər nəticəsində sənaye sahəsində əldə edilən göstəricilər bir daha sübut edir ki, Azərbaycan artıq regionun güclü sənaye mərkəzinə çevrilir.

Hacıqabul Sənaye Məhəlləsində yaradılan müəssisələrdən biri də "Elberg" tikinti materialları üçün avadanlıqların istehsalı zavodudur. Bu müəssisə Azərbaycanda ilk təcrübədir. Zavodla tanış olan dövlət başçısı müəssisəni işə saldı. Məlumat verildi ki, burada tikinti materialları - gips, əhəng, kərpic, alçipan və digər inşaat materialları istehsal edən zavodların layihələndirilməsi və quraşdırılması həyata keçiriləcək.

Öz növbəsində, dövlət başçısı bildirib ki, Hacıqabul Sənaye Məhəlləsinin inkişafı ilə bağlı əlavə göstərişlər verilib. Əlavə beş müəssisə yaradılacaq: "2017-ci ildə mənim Sərəncamımla yaradılan bu Sənaye Məhəlləsi artıq beş müəssisəyə sahibdir. Onların açılışı bu gün olub. Bu müəssisələrə də on milyonlarla manat sərmayə qoyulub. Bu da dövlət tərəfindən irəli sürülən təşəbbüsdür. Biz sahəni müəyyən etdik, infrastruktur layihələri icra etdik, bütün kommunikasiyaları çəkdik, hətta anqarları da dövlət hesabına inşa etdik. Sahibkar da gəlib burada öz sərmayəsini qoyub və müasir səviyyəli məhsullar istehsal olunur. Bu məhsullar da daxili tələbatı təmin edəcək".

## "Qarabağ zonasında da sənaye parkları yaradılacaq"

Vətən müharibəsi nəticəsində 30 ilə yaxın dövr ərzində işğal altında qalan ərazilərin azad edilməsi Azərbaycan iqtisadi imkanlarını daha da genişləndirməyə əlverişli şərait yaradıb. İşğaldan azad edilən ərazilərin sənaye potensialı kifayət qədər yüksəkdir. Zəngin su təchizatı, elektrik enerjisi, sənaye reaksiya imkanları və zəngin faydalı qazıntılar, azad olunan ərazilərin sənaye potensialının karkasını təşkil edir. Bu amillər onu deməyə əsas verir ki, azad edilən ərazilərin sənaye imkanları yaxın zamanlarda ölkə iqtisadiyyatında əlavə dəyər yaradacaq.

Azərbaycan Prezidenti, həmçinin bildirib ki, Qarabağ zonasında da sənaye parkları yaradılacaq və bu istiqamətdə hazırda İqtisadiyyat Nazirliyi tərəfindən müvafiq işlər görülür: "Qarabağ zonasında mütləq belə müəssisələr yaradılmalıdır ki, insanları biz işlə təmin edək. Həm də ki, bu zonanın potensialından maksimum dərəcədə istifadə edək".

Beləliklə, modern sənayeləşmə Azərbaycanın iqtisadi qüdrətinin daha da yüksəlməsinə real zəmin yaradır. İlham Əliyevin illər öncə söylədiyi fikir bu gün təsdiqini tapır. Dövlət başçısı deyirdi ki, Azərbaycanın qeyri-neft sənayesinin inkişafı üçün tikilən bütün sənaye park və məhəllələri, zavod və fabriklər bir müddətdən sonra ölkəyə böyük həcmdə valyuta gətirəcək. Artıq bu gün ölkəmizin ixrac-idxal əməliyyatlarında müsbət saldo yaranır. Dünya bazarına "Made in Azerbaijan" brendi ilə çıxan məhsullarımızın həm çeşidi, həcmi artır, həm də coğrafiyası genişlənir. Bu gün sənaye park və məhəllələrimizdə istehsal olunan məhsullar dünyanın müxtəlif ölkələrinə ixrac edilir.

Bir sözlə, əminliklə deyə bilərik ki, İlham Əliyevin müəllifi olduğu bu layihələr Azərbaycana böyük iqtisadi dividentlər qazandırır. Hacıqabulun Atbulaq kəndinin ərazisində yaradılan Azərbaycanın ən böyük sənaye məhəlləsi isə nəinki bu kəndin, hətta ətraf kəndlərin də əhalisi üçün geniş imkanlar açacaq.

**RƏFİQƏ HÜSEYNOVA**

## Rəsmi xronika

1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev H.M.Paşayevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam verib. Sərəncamla Azərbaycan Respublikasında təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Hafiz Mir Cəlal oğlu Paşayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilir.

***

Prezident İlham Əliyev Mübariz Ağali oğlu Əsgərovun Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının üzvü təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Rövşən Elmidar oğlu Bağırovun Lerik Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

Dövlət başçısının digər Sərəncamı ilə Rövşən Elmidar oğlu Bağırov Ağsu Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

# Türkiyə mediası: Prezident İlham Əliyev qondarma "erməni soyqırımı" bəyanatı ilə əlaqədar ABŞ-a etirazını bildirib

**Aprelin 28-də ABŞ-ın dövlət katibi Entoni Blinkenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etməsi Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, Türkiyə mediası sözügedən telefon danışığında müzakirə olunan məsələləri türkdilli ictimaiyyətə ayrı-ayrı tezislər şəklində manşet materialı kimi təqdim edib.**

























Anadolu, İHA xəbər agentlikləri, "TRT haber", "TRT Avaz", "Haber türk", "A haber", "Haber global" telekanalları, "Hürriyət" "Sabah", "Akşam", "Star", "Milli gazete" və digər qəzetlər daxil olmaqla ölkənin aparıcı media quruluşları tərəfindən sürətlə yayılan məlumatda vurğulanır ki, dövlətimizin başçısı İlham Əliyev bu günlərdə ABŞ Prezidentinin saxta "erməni soyqırımı" ilə bağlı bəyanatının Azərbaycan rəhbərliyi və ictimaiyyətində narahatlıq yaratdığını dövlət katibinin diqqətinə çatdırıb.

# İndoneziya mətbuatı: "Azərbaycan hələ də qaçqınlar problemi ilə üzləşir"

**İndoneziyanın nüfuzlu "Miraj" xəbər agentliyi "Azərbaycan hələ də qaçqınlar problemi ilə üzləşir" sərlövhəli məqalə yayıb.**

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış məcburi köçürülmə problemlərinə dair faktlar yer alıb. Azərbaycanda məcburi köçkün və qaçqınlar probleminin 1990-cı illərin əvvəllərində Ermənistanın xarici havadarlarının dəstəyi ilə ölkəmizə qarşı həyata keçirdiyi hərbi təcavüzün və etnik təmizləmənin nəticəsi olaraq meydana gəldiyi vurğulanıb. 2020-ci ilədək Ermənistanın işğalı altında olan Azərbaycanın Qağlıq Qarabağ və ona bitişik yeddi rayonunun azad edilməsi ilə uzun müddət davam etmiş bu problemin həlli üçün şərait yarandığı vurğulanıb.

Yazıda münaqişə nəticəsində bir milyondan çox azərbaycanlının Ermənistandakı atababa yurdlarından və Azərbaycana məxsus torpaqlardan məcburi çıxarıldığı, onların müvəqqəti olaraq yerləşdiyi məkanlar barədə ətraflı məlumat verilib. Azərbaycanın Tərtər rayonunda yaşayan 85 qaçqın və məcburi köçkün ailəsinə diqqət çəkilərək, Ermənistanın




mülkü obyektləri hədəf alan bombardmanı nəticəsində onların da əziyyət çəkdiyi qeyd edilib. Vurğulanıb ki, cəmi 10 milyon əhalisi olan Azərbaycanda 1 milyondan çox qaçqın və məcburi köçkün var və bu, ölkənin dünya üzrə adambaşına düşən ən böyük qaçqın sayına malik olduğunu göstərir. 2000-ci illərin əvvəllərindən böyük iqtisadi inkişaf yaşayan Azərbaycan dövlətinin qaçqın və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq üçün məsuliyyəti öz üzərinə götürdüyü, eyni zamanda, beynəlxalq təşkilatları bu işə davamlı şəkildə cəlb etdiyi də qeyd olunub.

2016-cı ilin aprelində işğaldan azad olunan Cocuq Mərcanlı kəndində aparılan uğurlu bərpa işlərinə diqqət yönəldilərək, bu kəndin sakinlərinin yenidən orada məskunlaşmasına xüsusi yer verilib. Azərbaycanda həyata keçirilən bu misilsiz layihə nəticəsində ilkin mərhələdə 23, daha sonra 150 ailənin öz doğma yurdlarına qayıtması üçün hökumət tərəfindən yüksək dəstək mühitinin yaradıldığı bildirilib.

Azərbaycan dövlətinin təqribən 30 il ərzində işğal altında olan torpaqlarını azad etdikdən sonra əsas prioritetinin bu əraziləri minalardan və digər partlayıcılardan təmizləmək, dağıdılmış yaşayış məntəqələrini bərpa etmək, qaçqınların öz torpaqlarına etibarlı şəkildə köçürülməsini həyata keçirmək olduğu qeyd edilib. Ermənistanın minalanmış ərazilərin xəritələrini hələ də Azərbaycana verməkdən imtina etməsinin prosesi ləngitdiyini təəssüflə qeyd edən müəllif, bu xəritələrin insanların həyatını xilas etmək, münaqişədən sonrakı bərpa və yenidənqurma prosesini sürətləndirmək üçün bir zərurət olduğunu vurğulayıb.

Azərbaycan ərazisində 3 onillik boyunca davam edən münaqişənin bitdiyi, xalqımızın bu torpaqlarda davamlı sülh, firavanlıq içində yamaq istədiyi xüsusi qeyd edilib. Bildirilib ki, münaqişənin səbəb olduğu əzab-əziyyətin azalması üçün lazımi humanitar tədbirlər görülməli və müxtəlif çətinliklərlə üzləşən bu insanların ləyaqətli həyatı təmin olunmalıdır. Məqalədə Azərbaycan xalqının davamlı sülhün və firavan gələcəyin bərpası üçün beynəlxalq ictimaiyyətin dəstəyinə ümid etdiyi də əksini tapıb.



# İkinci Dünya müharibəsi iştirakçılarına birdəfəlik maddi yardım veriləcək

**Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İkinci Dünya müharibəsində od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına da Azərbaycanda böyük diqqət və qa Xüsusi olaraq vurğulamaq lazımdır ki, veteranlara ikinci həyatı Ulu Öndər Heydər Əliyev bəxş etmişdir.**

Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycana hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. Ulu Öndər Heydər Əliyev müharibə veteranlarını "xalqımızın qızıl fondu" adlandırırdı.

Belə ki, xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl şücaət və əzmkarlıq göstərmişdir. Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. 9 May faşizm üzərində qələbədən 76 il ötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var. Azərbaycan Prezidenti İlham Əliyev İkinci Dünya müharibəsində Qələbənin 76-cı ildönümü ilə əlaqədar "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalayıb. Bu Sərəncam həmin kateqoriyadan olan vətəndaşlara göstərilən yüksək diqqət və qayğının növbəti nümunəsidir.Sərəncama əsasən, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500,0 (bir min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750,0 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım veriləcək. Sərəncama əsasən, Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 4,8 milyon (dörd milyon səkkiz yüz min) manat vəsait ayrılacaq. Maliyyə Nazirliyi həmin vəsaitin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın isə bu Sərəncamda nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin edəcək.Sərəncam ümumilikdə 6083 nəfərə şamil olunacaq. Onlardan 181 nəfəri İkinci Dünya müharibəsi iştirakçısı, qalanları İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş, habelə sənəddə nəzərdə tutulan digər şəxslərdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Sərəncamın yüksək səviyyədə icrası təmin edilməklə, birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək. Prezident İlham Əliyevin imzaladığı Sərəncam Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti bariz nümunəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Gənclər Birliyi görüş keçirib

**Aprelin 29-da Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi "Heydər Əliyev irsi və milli mənəvi dəyərlər" mövzusunda görüş keçirib. SİA-nın verdiyi məlumata görə, görüşdə YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iştirak edib. Tədbiri açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Ulu Öndər Heydər Əliyevin irsinin gənc nəsil üçün böyük məktəb olduğunu bildirib. O qeyd edib ki, Ulu Öndərimiz milli mənəvi dəyərlərimizin qorunması və inkişafında böyük xidmətlər göstərib.**







Daha sonra görüşün qonağı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlını təqdim edən Bəxtiyar İslamov deyib ki, Mübariz Qurbanlının "Heydər Əliyev irsi və milli mənəvi dəyərlər" mövzusunda məruzəsi gənclər üçün faydalı olacaq.

Görüşdə Mübariz Qurbanlı bildirib ki, hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır. Mübariz Qurbanlı qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin zəngin irsi hər zaman Azərbaycana uğurlar qazandırır. Ulu Öndər müstəqil Azərbaycanın təməl prinsiplərini formalaşdırıb, Azərbaycan xalqı və dövləti üçün misilsiz xidmətlər göstərib. Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində yeri və rolu uzun müddət müzakirə ediləcək, xalqımız qarşısındakı böyük və zəngin xidmətləri hər zaman tədqiqatlar mövzusu olacaq. Ümummilli Liderimizin fəaliyyəti keçmişə istinad edərək bu günümüzü necə qurmağı və gələcəyimiz üçün hansı işlər görülməsinin nümunəsini bizə göstərən, Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış fəaliyyətdir.

Onun sözlərinə görə, Azərbaycanın XX əsrdə bir ölkə kimi, istər Sovet hakimiyyəti dövründə, istər dövlət müstəqilliyinin bərpasından sonra qazandığı uğurlar Ulu Öndər Heydər Əliyevin fəaliyyəti ilə birbaşa bağlıdır. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi, əslində, çağdaş tariximizə ölkəmizin sürətli və uzunmüddətli inkişafının əsasının qoyulması kimi daxil olub. Azərbaycanın Heydər Əliyevin adı ilə bağlı olan sürətli inkişafının bu gün də yüksək dinamika ilə davam etməsi, o dövrdən başlayan yüksəliş strategiyasının böyük zaman kəsiyini əhatə edən dövlətçilik konsepsiyasını yerinə yetirdiyini qətiyyətlə sübut edir. Ümummilli Liderimiz Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən bir öndər olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət Onun bütün fəaliyyətinin əsasını təşkil edib. Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu Öndərimizin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının Liderliyinə yüksəldib, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib. Bütün həyatını xalqına və Vətəninə həsr etmiş Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil olub.

Dövlət Komitəsinin sədri söyləyib ki, Ulu Öndərimiz hər zaman milli mənəvi dəyərlərimizin qorunmasına və inkişafına xüsusi diqqət yetirib: "Azərbaycan xalqının söykəndiyi bu dəyərlər Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında dayanır. Ulu Öndərin yaratdığı dövlətçilik prinsiplərinin aparıcı xətti azərbaycançılıqdır. Milli-mənəvi dəyərlərimizi qorumaq bizim ən ümdə vəzifələrimizdən biridir. Biz bu gün milli-mənəvi dəyərlərimizin təbliğ və təşviqindən danışanda milli-mənəvi dəyərlərin tərkib hissəsi olan islami dəyərlərimizə və müasirliyə diqqət yetirməliyik. Buna görə milli-mənəvi dəyərlərimizin qorunması dedikdə, eyni zamanda, İslamın əsl mahiyyətini, əsl dəyərini olduğu kimi gənc nəslə çatdırmağı zəruri hesab edirik".

Mübariz Qurbanlının sözlərinə görə, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezidentimiz, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərin qorunması və təbliği prosesinə xüsusi diqqət yetirir.

M.Qurbanlı milli mənəvi dəyərlərimizin qorunması və təbliği ilə bağlı gənc nəslin üzərinə də böyük vəzifələrin düşdüyünü diqqətə çatdırıb. Daha sonra Dövlət Komitəsinin sədri gənclərin suallarını cavablandırıb. Görüş diskussiya şəraitində davam edib.

***Ceyhun Rasimoğlu***

# Adil Əliyev: İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri davam edir



***2020-ci il sentyabrın 27-də Ermənistan növbəti dəfə vətəndaşlarımızı ağır artilleriya zərbələrinə məruz qoydu. Düşmənin həyata keçirdiyi bu təcavüzə həmişəlik son qoymaq məqsədi ilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə Silahlı Qüvvələrimiz cəbhəboyu əks-hücum əməliyyatlarına başladı. Bundan sonra şanlı tariximizin Zəfər salnaməsi yazılaraq, 44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tamamilə darmadağın edildi. Ermənistan müharibədə məğlubiyyətə uğrayaraq, 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur edildi.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib. Milli Məclis sədrinin müavini qeyd edib ki, təxminən 27 il bundan əvvəl qəbul edilsə də, kağız üzərində qalan BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini Azərbaycan özü icra etməli oldu. "BMT Təhlükəsizlik Şurasının qətnamələrinin əsas cəhəti dərhal icra mexanizminin həyata keçirilməsi ilə bağlıdır. BMT qətnamələrinin bəzi hallarda icrası cəmi bir neçə saat çəkir. Burada ortaya maraq doğuran bir sual çıxır ki, hansı səbəbdən qətnamə bu vaxta qədər icra edilmirdi? Hansı ki, bu qətnamələrin dərhal və qeyd-şərtsiz icrası vacibdir. Lakin hökm sürən ikili standartlara görə ötən dövrdə bu qətnamələrin icrasına heç bir məcburiyyət tətbiq edilmədi", - deyə deputat vurğulayıb.

Adil Əliyev qeyd edib ki, 1992-ci ildə Ermənistan tərəfindən törədilmiş Xocalı soyqırımı nəticəsində qadınlar və uşaqlar da daxil olmaqla, 613 nəfər günahsız dinc sakin qətlə yetirilib. Xocalı soyqırımı indiyədək 13 ölkə tərəfindən tanınıb. Ermənilər işğal dövründə şəhər və kəndlərimizi dağıdıb, tarixdə misli görünməmiş vandallıq aktları törədiblər. Bu gün işğaldan azad edilmiş ərazilərə baxdıqda buradan bir barbar qoşunu keçməsinin şahidi oluruq. Təsadüfi deyil ki, törədilmiş bu vandallıq aktlarının nəticəsində mütəxəssislər Ağdam şəhərini "Qafqazın Xirosiması" adlandırırlar. Ermənilər vandalizm aktı törədərək tarixi, mədəni və dini abidələri təhqir və qarət ediblər və 60-dan çox məscidi dağıdıblar. Azərbaycan tarixi ədaləti bərpa edərək 30 ilə yaxın işğal altında olan torpaqlarını düşmən tapdağından azad etdi. Tarixi ədalətin bərpası ilə yanaşı, bu gün işğaldan azad edilmiş ərazilərimizin də yenidən qurulması prioritet istiqamətdir.

"İşğaldan azad edilmiş ərazilərimizin dirçəldilməsi, həmin ərazilərə "Böyük Qayıdış"ın təmin olunması dövlətimizin əsas prioritetlərindəndir. Dövlətimizin başçısının işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfəri zamanı yenidənqurma prosesi çərçivəsində Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" konsepsiyasının icrasına başlandı. Əminik ki, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları əsasında yenidənqurma işləri çox sürətlə davam edəcək, işğaldan azad edilmiş ərazilərimiz firavan günlərə qovuşacaqdır", - deyə Adil Əliyev əminliyini ifadə edib.

# "Yeni bir tarixi dərs almaq istəmirlərsə, ermənilər təxribatlara son qoymalıdırlar"



Faşizm ideologiyasına xidmət edən Ermənistan Azərbaycanın onun üzərində Qələbəsini həzm edə bilmir. 44 günlük Vətən müharibəsində "Dəmir yumruq"la başı əzilən düşmən məğlubiyyətlə barışmaq istəmir. Dünyanın ən eybəcər və ən vandal faşizmi olduğu kimi, ermənisayağı revanşizm də olduqca təhlükəli və gözlənilməz ola bilər. Ona görə də Azərbaycan revanşistlərin başını "Dəmir yumruq"la əzməyə həmişə hazır olmalıdır və hazırdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Prezident İlham Əliyevin daim öz çıxışlarında Azərbaycanın və dünyanın diqqətini bu məsələyə çəkdiyini və revanşistlərə qəti xəbərdarlıq etdiyini vurğulayan deputat deyib: "Hamıya aydındır ki, Ermənistanda belə qüvvələr var və onlar tək deyillər. Çünki revanşizmi xaricdən dəstəkləyən, erməni olan və olmayan digər güc mərkəzləri də var. Əgər belə olmasaydı, rəşadətli Azərbaycan Ordusu tərəfindən darmadağın edilən, faktiki olaraq diz çökdürülən ermənilər revanşizmə cəhd etməyə cəsarət etməzdilər. Elə Zəngilan rayonunun Seyidlər kəndi istiqamətində bizim sərhəd qoşunlarımıza atəş açılması da bunu təsdiq edir".

Hikmət Babaoğlu diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti ermənilərin bu alçaq hərəkətinə də elə Zəngilandan, orada xidməti istifadə üçün açılan sərhəd zastavasından cavab verdi. Dövlətimizin başçısı düşmənə son və qəti xəbərdarlıq etdi. Bu xəbərdarlıq ermənilərlə bərabər onların havadarlarına da edilən xəbərdarlıq idi. Şəxsi heyət qarşısında çıxış edən Müzəffər Ali Baş Komandan birmənalı olaraq bildirdi ki, əgər bir də belə şey təkrarlanarsa, düşmən yerindəcə məhv ediləcək.

Deputat deyib: "Düşmənin yerindəcə necə məhv edildiyini isə ermənilər çox yaxşı bilirlər. Çünki 44 günlük Vətən müharibəsində bunu əyani şəkildə görüblər və tarixləri boyu unutmayacaq bir dərs alıblar. Əgər ermənilər yeni bir tarixi dərs almaq istəmirlərsə, təxribatlara son qoymalıdırlar.

# Vətən müharibəsində iştirak etmiş 405 qaziyə əlillik statusu verilib



İndiyədək 405 qaziyə əlillik təyinatı aparılıb. Trend xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsində "Əlilliyin ekspertizası və reabilitasiyası sahəsində qanunvericiliyin təkmilləşdirilməsi" mövzusunda keçirilən dinləmədə Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Nazir Vətən müharibəsində yaralanmış hərbçilərin əlilliklərinin qiymətləndirilməsi sahəsində görülən işlər barədə bildirib ki, artıq 405 qaziyə əlillik təyinatı aparılıb, proses davam edir: "İndiyədək 17 qazi yüksək texnologiyalı protezlərlə təmin edilib, nazirliyin reabilitasiya müəssisələrində 105 qazi stasionar müalicə alır, 1200-dən çox qaziyə psixoloji xidmət göstərilib".

ANALİTİK-AKTUAL

# Avropa İttifaqı terroru dəstəkləyir (?!)

*Qurumun Azərbaycandan ağlasığmaz tələbi məhz bu cür qənaətə gəlməyə zəmin yaradır*

Avropanın, xüsusilə Qərb "dəyərlərinin" son zamanlar aşkar şəkildə xristian klubu obrazında çıxış etməsi, eləcə də islamafob, ksenofob baxışlarını siyasi kontekstdən nümayiş etdirməsi demək olar ki, sürəkli hal alıb və dünya ictimaiyyəti bu reallığı kifayət qədər rahat müşahidə etməkdədir. Əslində, belə bir yanlış siyasət addımları Avropa İttifaqı (Aİ) tərəfindən daha əvvəllər cüzi görünürdüsə, məsələn, Yaxın Şərq üzrə siyasətində öz maraqlarını təmin etmək üçün hətta gizli şəkildə radikal dini terror qruplarına dəstək göstərirdisə, indi bu kimi hallar açıq forma almağa başlayıb.

## Aİ-nin islamofob siyasəti ilə yanaşı, ayrıca antitürk siyasəti mövcuddur

Məsələn, Ankaranın öz sərhədlərini mümkün təhlükələrdən qorumaq məqsədi ilə, eləcə də hüquqi çərçivədə Suriya və İraq ərazisində apardığı anti-terror əməliyyatları başlayar-başlamaz Aİ dərhal anti-Türkiyə xarakterli bəyanatlar səsləndirməyə başlayır, üstəlik, öz təbirincə Ankaranın ədalətli və haqlı siyasətinə fərqli don geyindirməyə cəhdlər göstərir. Buradan həm də növbəti məsələ ortaya çıxır - Aİ-nin islamofob siyasəti ilə yanaşı, ayrıca antitürk siyasəti mövcuddur və əlinə düşən hər imkanda hətta islamçılıq pərdəsi altında fəaliyyət göstərən terror təşkilatlarını öz kirli məqsədləri naminə istifadə edir. Belə faktlar isə çoxdur, hətta lap çox...

Bu gün eyni zamanda, Aİ-nin məhz antitürk siyasəti kontekstində ermənilərin hay-havarlarına qoşularaq Azərbaycandan hər hansı bir tələblər etməsi, Bakıya qarşı sözün əsl mənasında həyasızlıq nümayiş etdirməsi heç bir çərçivəyə sığmır. Hətta Aİ-nin açıq-aydın terrora dəstək göstərməsini isbatlamış olur.

## Maraqlıdır ki, Aİ nə zamandan və hansı üstün əməllərinə görə Azərbaycan qarşısında erməni terrorçularının maraqlarından çıxış etməklə öz təbirincə şərtlər irəli sürür?

Misal üçün, bu gün Aİ-nin Ermənistana qahmar çıxması, Azərbaycan, Rusiya və Ermənistan ölkə başçıları tərəfindən imzalanan üçtərəfli bəyanatdan sonra əsirlərin qaytarılması məsələsində sözügedən siyasi həyasızlığa yol verməsi qəbulolunmaz bir məsələdir. Daha dəqiq desək, bu gün Aİ məhz atəşkəs sənədi imzalandıqdan günlər sonra (!) Azərbaycanın suveren ərazilərinə terror-diversiya məqsədilə göndərilmiş və aşkar edilərək saxlanılmış erməni terrorçularının azadlığa buraxılmasını tələb edir (?!)

Təkcə həmin tələbin məzmununa nəzər yetirərsək, biz nəyinnecə olduğunu aydın şəkildə görmüş olarıq - Avropa İttifaqı hansı şəraitdə (?!) saxlanılmalarına baxmayaraq, Azərbaycanın hərbi əsirləri dərhal (?!) azad olunmalarını tələb edir və s...

Maraqlıdır ki, Aİ nə zamandan və hansı üstün əməllərinə görə Azərbaycan qarşısında erməni terrorçularının maraqlarından çıxış etməklə öz təbirincə şərtlər irəli sürür? Nəyə görə torpaqlarımız 30 il işğal altında qaldığı müddətdə Aİ Ermənistan qarşısında BMT-nin dörd qətnaməsini icra etmək tələbini qaldırmayıb? Yaxud, birinci Qarabağ müharibəsində minlərlə Azərbaycan vətəndaşlarının əsir və girov götürülməsi, bu günə qədər onlar barəsində məlumatın verilməməsi faktını haraya yazaq? O cümlədən, azərbaycanlılara qarşı



törədilmiş soyqırımı faktları ilə bağlı Aİ indiyə qədər ciddi məsələ qaldırıbmı? Ermənistana qarşı hər hansı bir sərt ittihamlarda bulunubmu? Və..!

## Nəyə görə hər gün insanlarımız minaların qurbanlarına çevrilirlər və buna görə Aİ bir dəfə də olsun Ermənistanı məzəmmət etmir?

Və ikinci Qarabağ müharibəsindən sonra Ermənistanın işğal etdiyi ərazilərimizdə xaotik şəkildə basdırdığı minalarının xəritələri noyabrın 10-dan hazırkı günədək niyə Azərbaycan tərəfinə verilmir? Nəyə görə hər gün insanlarımız minaların qurbanlarına çevrilirlər və buna görə Aİ bir dəfə də olsun Ermənistanı məzəmmət etmir? Sərf etmir? Yoxsa xristian klubunun yazılmamış qanunlarında belə bir müddəa yoxdur?

Əlbəttə ki, bütün bunlar bir-bir qeydə alınır və Aİ belə davam edərsə, nəinki Azərbaycan, eləcə də Türkiyə dövləti gözlənilən, müvafiq addımlarını ataraq bu xristian klubunun cavabını hüquqi qaydada verəcək. Artıq dünyada hər şey onların istədikləri kimi deyil və oyunların da qaydaları dəyişib. Yaxşı olardı ki, Aİ bu barədə düşünsün və nəticə hasil etsin, zatən öz daxillərindəki problemləri başlarından aşır. Götürək, Böyük Brtitaniyanın BREXİT-ini. Hər halda, Britaniya özünün əsrlərdən gələn dövlətçilik maraqlarını Avropanın axmaq maarqlarının güdazına verməк istəmədi. Çünki anladı ki, dövlətçilik maraqları əldən çıxa bilər.

Sabah-birigün növbəti ölkələr də düşdükləri Avropa "dəyərləri", iqtisadiyyatı və siyasəti fonunda yaxalarını bu qurumdan çəkməli olacaqlar. Bax onda hər şey bu xristian, irqçi, islamofob, antikultural və antitolerant "iuttifaqının" tam əksinə gedəcək. Buna isə 100 faiz əmin ola bilərlər, əgər erməni terroruna, ümumilikdə isə terror reallıqlarına dolayısı ilə dəstək verməyə, daha dəqiq desək, beynəlxalq hüquqa tüpürməyə davam etsələr...

**Rövşən RƏSULOV**

# "Prezidentin dedikləri Ermənistan üçün çox ciddi ismarıcdır"

*SİA hərbi ekspert Ramil Məmmədlinin müsahibəsini təqdim edir:*

***- Bilirsiniz ki, cənab Prezident İlham Əliyev aprelin 26-da işğaldan azad olunmuş Cəbrayıl və Zəngilan rayonlarına səfər edib. Dövlət başçısının burada verdiyi mesajların əsas hədəfi kimlər idi?***

- Cənab İlham Əliyevin Cəbrayıl və Zəngilana səfərinin bu günlərdə olması təsadüfi deyil. Son günlərdə ermənilərdə Azərbaycana qarşı anti-təbliğat prosesləri həddindən artıq güclənib və cinayətkarların yönəlik çox sərt açıqlamaları olub. Paşinyanın hakimiyyətdən devrilməsindən sonra erməni cəmiyyəti radikallaşdı. Bununla bərabər hakimiyyətə Azərbaycanın ərazilərini yenidən işğalına yönəlik siyasətin başladılması üçün qüvvələr gələcək. Belə olan vaxtda Azərbaycan Prezidenti işğaldan azad olunmuş ərazilərə səfər etdi və səfər zamanı cənab Prezident həmin qüvvələrə qarşı açıq fikrini bildirdi. Fikirlərdən biri məhz Zəngəzur ilə bağlı idi. Çünki Zəngəzur Azərbaycan üçün olduqca strateji əhəmiyyət daşıyan bir bölgədir. Ermənistan Moskvada olan havadarları ilə Zəngəzur bölgəsini oğurlayıb. Cənab Prezident həm Xankəndidə oturan cinayətkarlara, həm seçki ərəfəsində aktivləşən Koçaryan və Sarkisyan hakimiyyətinə yaxın olan şəxslərə, həmçinin orduda yenidən hərbi əməliyyatların başlanması tərəfdarı kimi çıxış edən rəhbər şəxslərə yönələn fikirlər səsləndirdi. Söyləmək olar ki, bunu Bakıdan demək mümkün deyildimi? Amma bunun işğaldan azad olan ərazilərdə - Zəngilanda və Cəbrayılda söylənməsi və xüsusən də yeni hərbi hissənin açılış mərasimində bildirməsi Ermənistan üçün çox ciddi ismarıcdır.

***- Hazırda regionla bağlı vəziyyəti necə izah etmək olar? 44 günlük müharibədən sonra sülhməramlıların Qarabağdakı missiyası nə ilə diqqət çəkir?***

- Bizim sülhməramlılardan gözləntimiz çox idi. Lakin özünü heç doğrultmadı. Özünü doğrultmayan məqam ondan ibarətdir ki, bu Rusiya və Rusiya hərbi rəhbərliyi üçün şans idi ki, öz ölkəsinin sülhpərvərliyini yenidən bərpa etsin. Çox təəssüf ki, Rusiya və onun təmsil olunan nümayəndələri öz işindən başqa digər işlərlə də məşğul olmağa başladı. Ermənilərin sayının artırılması və oturaq həyat tərzinə çevrilməsi üçün əlindən gələni etməli idi. Düşünürəm ki, Rusiya növbəti dəfə şansını əlindən buraxdı. Lakin sülhməramlıların hələ də şansı var, ədalətin və sülhün bərqərar olunmasında addım ata bilərlər. Əgər bu proses belə davam edərsə, qarşıdan gələn illərdə 5 ilin tamamı olmadan belə Rusiya sülhməramlılarının dislokasiyası ilə bağlı Azərbaycan cəmiyyətində müəyyən etirazlar baş qaldıra bilər.



***- Rus sülhməramlılarının parad keçirmək niyyəti cəfəng, eyni zamanda qıcıq doğuran məsələ olsa da, bu nəyə yönəlikdir? Bu, Rusiya üçün nə deməkdir və regiona nələr vəd edir?***

- Rusiya silahlı qüvvələrinin belə bir ənənəsi var ki, Rusiya ordusu harada yerləşirsə həmin ərazidə mayın 9-da qələbə paradı keçirirlər. Düşünürlər ki, bu hərbi paradı Qarabağda da keçirə bilərlər. Azərbaycan cəmiyyətində haqlı olaraq buna narazılıq var. Hesab edirəm ki, Rusiya ermənilərin orada mövcud olmasından başqa həmçinin Cənubi Qafqazın ən böyük və ən güclü dövləti olan Azərbaycanla münasibətlərini korlamamaq üçün bir qədər düşünməlidir.

***- Aprelin 24-də qondarma "erməni soyqırımı"nı tanımaqla bağlı ABŞ Prezidenti Co Bayden qərar verdi. Bu qərar türk dünyası tərəfindən bir mənalı qarşılanmadı. Ümumiyyətlə Baydeni bu qərarı verməsinə nə vadar etdi?***

- Baydenin fikirləri siyasi məqsəd daşıyır və hər hansı bir hüquqi təzyiq rolunu oynaya bilməz. Əlbəttə Amerika Rusiya münasibətlərinə mənfi təsir etdi. Qarşıdan gələn günlərdə Türkiyə və Amerika münasibətlərində normallaşma görməyimiz inandırıcı deyil. Baydenin özünün hərbi siyasi müttəfiqi olan bir ölkəyə bu addımı atması Amerikanın özünün milli maraqlarına ziddir. Maraqlı məqam budur ki, Bayden hakimiyyətə gələndə Amerikanın milli maraqlarına xidmət edəcəyinə dair fikir səsləndirmişdi. Donald Trampı məsuliyyətsiz çıxışlar etməsindən ittiham edirdi. Amma Tramp siyasi məsələrə diqqət edirdi və belə səhvlərə yol vermirdi. Bayden unutdu ki, Türkiyədə Amerikanın hərbi bazası mövcuddur və NATO-nun əsas güclərindən biri Türkiyədir. Cənubi Qafqazda, İran və Çin əlaqələrində Türkiyənin rolu danılmazdır. Amerikanın siyasi səhvi amerika siyasətçiləri tərəfindən üstü örtüləcək ki, Türkiyə məsələyə dərin yanaşıb Rusiyaya tərəf getməsin.

***- Türkiyə ilə əməkdaşlıq insanlarda belə bir ümid yaradıb ki, Rusiya bölgədə nə qədər çapalasa da, artıq əvvəlki kimi təsir edə bilməz. Buna fikriniz nədir?***

- Rusiyanın Azərbaycana, Ukraynaya, Gürcüstana, Bolqarıstana, Polşaya da təsir imkanı var. Lakin bu təsir imkanı ölkənin düzənini, qaydalarını, qanunlarını siyasi və ictimai durumunu dəyişə bilməz. Rusiyanın əsas təsir imkanı Ermənistanadır. Azərbaycanda bu məsələ ilə bağlı narahatlıq yoxdur. Çünki Ümummilli Lider Heydər Əliyevin uzaq görən siyasəti və cənab Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və digər reformlar ölkəmizi elə gücləndirib ki, bugün Azərbaycanın Rusiyadan asılılığı həddindən artıq aşağıdır. Demək olar ki, yox vəziyyətindədir.

***Qönçə Quliyeva***

# Palçıq vulkanları ekoturizmin inkişafına zəmin yaradır

*Dünyada mövcud olan 1700 palçıq vulkandan 700-ü ölkəmizin payına düşür*

Yer üzündəki iqlim qurşaqlarının doqquzuna çox da böyük olmayan respublikamızın ərazisində rast gəlmək mümkündür. Mülayim iqlimi, günəş şüası ilə yanaşı, bol yağışı, bəyaz qarı Azərbaycanın təbiətinə rəngarənglik qatır. Həm florası, həm də faunası ilə zəngin olan Azərbaycanın hər bir bölgəsinin təbiəti digər bölgənin təbiətindən xeyli dərəcədə fərqlənir. Belə məkana sahib olan Azərbaycan turist ölkəsi olaraq tanınıb. İstər qədim dövrlərdə, istərsə də sovet məkanında yaşadığımız zamanda Azərbaycan təbiəti, təbii sərvətləri, iqlimi, yeraltı və yerüstü sərvətləri ilə xarici vətəndaşların diqqətində olub. Müasir dövrümüzdə turizm ölkəsi kimi tanınan Azərbaycan dünya arenasında öz sözünü deyib. Kornovirus pandemiyasına qədər ölkəmizə gələn turistlərin sayının gündən-günə artmasında ölkəmizin füsünkarlığı, dünya standartlarına cavab verən beşulduzlu otel və istirahət mərkəzlərinin istifadəyə verilməsi və s. ilə yanaşı, rahat gediş-gəlişin təminatı da qeyd olunmalıdır.

Azərbaycanın ən gözəl məkanları olan Qubanın Xınalıq kəndi, İsmayıllının Lahıc qəsəbəsi, Qusarın "Şahdağ" Qış-Yay Turizm Kompleksi, Şəkidəki Kiş Alban məbədi, Şəki Xan sarayı, dənizkənarı bulvarı ilə seçilən gözəl təbiətli Astara, Şuşanın, Laçının sərin bulaqları və əzəmətli dağları və meşələri də turizm üçün əlverişli məkandır. Qobustan qaya təsvirlərini dünya miqyasında görmək istəyən çoxlu insanlar var ki, qədim insan məskənlərini görmək, onlarla tanış olmaq hamı üçün maraqlıdırlar. Ölkəmizdə turistlər üçün diqqətçəkən məkanlar dövlət tərəfindən xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə, qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara diqqət və qayğı artıb. Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, Bakı şəhərində "Şirvanşahlar Saray Kompleksi", "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar meydanı", "Məktəbməscid", Şəki rayonunda "Şəki Xan Sarayı", qala divarları, "Kiş" alban məbədi, "Aşağı Karvansaray", "Şəkixanovların evi", Quba rayonunun Xınalıq kəndində "Əbu-Müslüm" və "Xıdır Nəbi" məscidləri, Şərur rayonunda "Qudi-Xatun" türbələri, Babək rayonunda "Əshab-ül-Kəhf" ziyarətgahı dini-mədəni abidə kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb. Dünya turistlərinin diqqətini Azərbaycana cəlb etmək üçün müxtəlif istiqamətlərdə fəal işlər görülüb. Ölkənin turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə kitablar, bukletlər, disklər hazırlanıb və yayılıb, dünyanın müxtəlif televiziya kanallarında reklamlar nümayiş etdirilib.



Bu gün beynəlxalq aləmin dövlətimizə olan marağının miqyası daha da genişlənib, turizm sahəsində həyata keçirilən dövlət proqramları, layihələr bu sahəsində böyük uğurlara səbəb olub. Ölkəmizdə turizmin müxtəlif növləri inkişaf edib. Qış turizmi, yay turizminə malik olan ölkəmizdə sağlamlıq turizmi, istirahət turizmi, idman turizmi və s. mövcuddur. Öz təbii sərvətləri ilə seçilən torpaqlarımız səfalı və müalicəvi əhəmiyyətə malikdir. Zəngin relyefə və təbiətə malik olan Azərbaycanın vulkanların sayına, müxtəlifliyinə və aktiv fəaliyyətinə görə dünya ərazisində oxşarı yoxdur. Palçıq vulkanları ekoturizmin inkişafı üçün yaxşı obyektlər hesab edilir. Palçıq vulkanlarının əksəriyyəti Bakı və Abşeron yarımadasında yayılıb və onlardan bəziləri təbiət abidəsi kimi formalaşıb. Bu vulkanlar ölkəmizin təbii sərvəti olmaqla yanaşı, həm də xaricdən turistlərin cəlb olunması, ekoturizmin inkişafı üçün mühüm zəmin yaradır. Palçıq vulkanı müalicəvi əhəmiyyətə də malikdir. Belə ki, vulkanların palçığından 10-dan çox xəstəliyin müalicəsində istifadə olunur. Vulkan palçığı dəri, onurğa sütunu, mədə-bağırsaq traktı, şəkərli diabet xəstəlikləri, urologiya, kosmetologiya sahələri və s. üçün faydalıdır. Azərbaycana gələn turistlər palçıq vulkanları ilə tanış olmağa meyillidirlər. Mütəxəssislərin qənaətinə görə, Azərbaycanda vulkan palçığı neftlə qarışıq olduğu üçün o daha keyfiyyətlidir, kimyəvi tərkibinə görə Naftalan nefti ilə təxminən eynidir.

Dünyada olan 1700 palçıq vulkanından 700-ü ölkəmizdədir. Əsasən, Abşeron yarımadası, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelaqındadır. Onlardan 350-si aktiv vulkandır. Azərbaycanda 2 vulkan çox nadir hallarda rast gəlinən vulkanlardan sayılır ki, bunlar Qobustandakı "Qoturdağ" və "Çeyildağ" vulkanlarıdır. Palçıq vulkanları həm müalicəvi xüsusiyyətinə, həm də maraqlı təbiət hadisəsi olduğuna görə turistlərin diqqətindədir. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Abşeron rayonunun Qobustan kəndinin ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin təməli qoyulub. Palçıq Vulkanları Turizm Kompleksi Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən təxminən 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən əsas yolun üstündə dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılacaq. Bura "Qılınc" palçıq vulkanlarının ərazisi kimi tanınır. "Qılınc" palçıq vulkanlarının yerləşdiyi ərazidə turizm kompleksinin yaradılmasının bir sıra üstünlükləri vardır. Belə ki, bura turistik əhəmiyyət daşıyır. Dünyanın ən böyük vulkanlarından olan "Torağay"a və digər vulkanlara mənzərənin açılması, burada turistlərə gəzinti üçün əlverişli şərait yaradan 3 müxtəlif vulkan qrupunun olması, Qobustan qoruğunun yaxınlığında yerləşməsi kimi amillər turistik önəmini daha da artırmış olur. Təbii ki, palçıq vulkanları yerləşən ərazidə infrastrukturun yaradılması zəruridir. Burada yaradılacaq infrastruktur Qobustan qoruğundan "Qılınc" və ətraf ərazilərdəki vulkanlara gediş-gəlişi təmin edəcəkdir. Eyni zamanda Bakı-Qobustan-Palçıq vulkanları turizm klasterinin yaranması ilə nəticələnəcək 20 kilometrlik yolun çəkilişi nəzərdə tutulub. Görülən işlər ölkəmizin turizm potensialının daha da üzə çıxarılmasına istiqamətlənib. Azərbaycanın turizm məkanlarının coğrafiyası yaxın zamanlarda daha da genişlənəcək. İşğaldan azad olunan ərazilərdə turizm mərkəzləri yaradılacaqdır. Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə xəstəlikləri müalicə etmək mümkündür. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdi. Zəngilan isə meşə ehtiyatı ilə zəngindir. Bütün Avropada ən böyük çinar meşəsi bu rayonda olub. Hər bir torpağımızda zəngin turizm məkanları mövcuddur. Qarabağ bölgəsinin təkrarolunmaz təbiəti, səfalı yerləri və tarixi abidələri buranı qısa bir zaman məsafəsində turizm məkanına çevirəcək. Mövcud potensialdan səmərəli istifadə iqtisadiyyatın şaxələndirilməsini sürətləndiriləcək, turizm imkanlarımız daha da artacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qəlblərdə əbədi yaşayacaq oftalmoloq alim

*Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın əbədiyaşar xatirəsi YAP Səbail rayon təşkilatında yüksək ehtiram və böyük məhəbbətlə yad olundu*

**YAP Səbail rayon təşkilatında görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümü münasibətilə onlayn formatda videokonfrans keçirilib.**



Rayon ictimaiyyəti nümayəndələri, ziyalılar, partiya veteranları, fəal gənclərin iştirak etdiyi videokonfransda YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev, “Modern inkişaf və ailə cə-




miyyəti” İctimai Birliyinin sədri, Nəsimi rayon Ağbirçəklər Şurasının sədri Zərifə xanım Quliyeva, YAP Veteranlar Şurasının və YAP Səbail rayon təşkilatının İdarə heyətinin üzvü Adilə xanım Abasova, YAP Səbail rayon “Müalicə-diaqnostika” (“Xüsusi Müalicə Sağlamlıq Kompleksi”) ərazi ilk partiya təşkilatının üzvü, həkim-oftalmoloq Bahar xanım Mustafayeva, YAP Səbail rayon “Vərəm həkimləri” (3 saylı Vərəm əleyhinə dispanser) ərazi ilk partiya təşkilatının üzvü Günel xanım Hacıyeva, YAP Səbail rayon “Caspian International Hospital” ərazi ilk partiya təşkilatının üzvü Firuzə xanım Ağayeva çıxış etdilər.

Əvvəlcə, görkəmli alim, Azərbaycan tibb elmində yeni elmi məktəbin əsasını qoyan, nəhəng elmi tədqiqatların müəllifi olan, eyni zamanda, qayğıkeş ana və nümunəvi həyat yoldaşı akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev hər il Zərifə xanımın əbədiyaşar xatirəsinin bütün Azərbaycan xalqı tərəfindən yüksək ehtiram və böyük məhəbbətlə yad olunduğunu diqqətə çatdıraraq bildirdi ki, Zərifə xanım Əliyeva sözün əsl mənasında mərhəmət, nəciblik, qayğıkeşlik və fədakarlıq simvolu idi. Özünü bütünlüklə elmə, təhsilə, xalqının sağlamlığı, rifahı üçün böyük fədakarlıq tələb edən peşəsinə həsr edən və Azərbaycanın görkəmli qadın şəxsiyyətlərdən olan Zərifə xanımın adı dünya tibb elminə, ölkəmizin ictimai-siyasi tarixinə qızıl hərflərlə əbədi həkk olunub. Dahi siyasətçi, görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin sadiq ömür-gün yoldaşı, möhtərəm Prezidentimiz, qalib Sərkərdə, müzəffər Ali Baş Komandan İlham Əliyevi dünyaya gətirən və böyüdən Zərifə xanım Əliyeva ən yüksək insani keyfiyyətləri özündə ehtiva edən, şərəfli həyat yolu keçən və özündən sonra zəngin elmi irs qoyan nadir qadın mütəxəssis idi.

Ş.Hacıyev vurğuladı ki, dövrünün ən məşhur siyasətçilərindən, dövlət xadimlərindən və alimlərindən biri olan Əziz Əliyevin ailəsində tərbiyə alan Zərifə xanımın həyatı enişli-yoxuşlu olub, bu nəcib və zərif Azərbaycan-Türk qadını taleyin bütün çətinliklərinə, sınaqlarına mətanətlə sinə gəlib və istər ailə həyatında, istərsə də son dərəcə çətin peşəsində Azərbaycan xalqı üçün tarixi xidmətlərə imza atıb. Qeyd olundu ki, Azərbaycan tibb elmində, xüsusilə insanın ən zərif və mürəkkəb bədən üzvü olan göz xəstəliklərinin müalicəsi sahəsində bir çox kəşflər məhz Zərifə xanımın adı ilə bağlıdır. Zərifə xanım XX əsrin II yarısında SSRİ-də geniş yayılan traxoma xəstəliyinin müalicəsini tapan ilk alimlərdən biri idi. Minlərlə insanın dünya işığına həsrətinə son qoyan, dərdinə dərman olan və dünyada məşhurlaşan görkəmli oftalmoloq-alim Zərifə xanımın təsadüfi deyil ki, dövrünün ən yüksək mükafatı - SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın alim olmuşdur.

Zərifə xanım Əliyevanın Azərbaycan tibb elmindəki əvəzsiz tarixi xidmətləri, tədqiqatları, müəllifi olduğu kitabları, əsərlərində həkim və xəstə arasındakı münasibətlərin psixoloji aspektlərinə xüsusi həssaslıqla yanaşması haqqında geniş danışan Ş.Hacıyev eyni zamanda görkəmli alim, etibarlı həyat yoldaşı və müqəddəs ana vəzifələrinin öhdəsindən layiqincə gəlməyi bacaran Zərifə xanımın şərəfli həyat yolunun bütün gənclər üçün ən gözəl örnək olduğunu xüsusi vurğuladı. Sədr yüksək fəxarət və əminliklə bildirdi ki, Zərifə xanımın ruhu bu gün şaddır, çünki müstəqil Azərbaycanı güclü, qüdrətli dövlətə çevirən, 27 ildir düşmən tapdağı altında olan torpaqlarımızı işğaldan azad edən, Azərbaycan xalqının başını uca edən möhtərəm Prezidentimiz, Zərifə xanımın oğlu, Ulu Öndər Heydər Əliyevin layiqli siyasi davamçısı İlham Əliyev nəinki yaxın coğrafiyada, dünya miqyasında tanınan və yüksək nüfuza sahib olan ölkə rəhbəri, görkəmli dövlət xadimi və siyasətçidir. Ş.Hacıyev Azərbaycan xalqının qəlbində gözəl işləri, mərhəməti və qayğıkeşliyi ilə əbədi həyat qazanan Zərifə xanım Əliyevaya bir daha qəni-qəni rəhmət dilədi.

“Modern inkişaf və ailə cəmiyyəti” İctimai Birliyinin sədri, Nəsimi rayon Ağbirçəklər Şurasının sədri Zərifə xanım Quliyeva yaddaşlara ləyaqətli xanım, bənzərsiz şəxsiyyət, görkəmli alim və incə ruhlu, gözəl ana kimi həkk olunan Zərifə xanım Əliyevanın peşə fəaliyyəti, tədqiqatları və ailə həyatındakı rolu haqqında danışaraq Zərifə xanımla bağlı xatirələrini konfrans iştirakçıları ilə bölüşdü.

YAP Veteranlar Şurasının və YAP Səbail rayon təşkilatının İdarə heyətinin üzvü Adilə xanım Abasova Zərifə xanımın taleyinin adı kimi zəriflik, yüksək nəcabət və ətrafındakı bütün insanlar üçün qayğıkeşlik, mərhəmət məktəbi olduğunu vurğuladı və gənclərə Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini dərindən araşdırmağı, nümunələr götürməyi tövsiyə etdi.

Çıxış edən YAP Səbail rayon “Müalicə-diaqnostika” (“Xüsusi Müalicə Sağlamlıq Kompleksi”) ərazi ilk partiya təşkilatının üzvü, həkim-oftalmoloq Bahar xanım Mustafayeva Zərifə xanım Əliyevanı Azərbaycan təbabət elmində özünəməxsus yeri olan və yüksək fitri istedada sahib alim kimi xarakterizə etdi, Zərifə xanımın dərinmənalı ömrünü kamillik və müdriklik məktəbi adlandırdı. Xeyirxahlıq və mərhəmətin Zərifə xanım üçün həyat tərzi olduğunu vurğulayan B.Mustafayeva bildirdi ki, Zərifə xanımın nur dolu, parlaq xatirəsi yalnız Onun yetirmələri və Onu tanıyanların deyil, bütün Azərbaycan xalqının qəlbində yaşayıb və yaşayacaq.

YAP Səbail rayon “Vərəm həkimləri” (3 saylı Vərəm əleyhinə dispanser) ərazi ilk partiya təşkilatının üzvü Günel xanım Hacıyeva Azərbaycan elmində peşə laboratoriyasının əsasını qoyan Zərifə xanımın gənclərə örnək olan nəcib xüsusiyyətləri, yüksək insani keyfiyyətləri və əxlaq prinsipləri, eləcə də bədii incəsənətə olan marağı və istedadı haqqında danışdı.

YAP Səbail rayon “Caspian International Hospital” ərazi ilk partiya təşkilatının üzvü Firuzə xanım Ağayeva Azərbaycan oftalmologiya elminin inkişafında misilsiz xidmətləri olan Zərifə xanım Əliyevanın elmi irsi və milli təbabətimizə bəxş etdiyi saysız-hesabsız yetirmələri haqqında danışaraq Zərifə xanımı Azərbaycan elminin fəxri adlandırdı.

Videokonfrans Zərifə xanım Əliyevanın elmi irsinə və şərəfli həyat yoluna dair fikir mübadiləsi ilə davam etdi.

***Rəfiqə***

## Azərbaycan Prezidentinin növbəti siyasi uğuru

ABŞ dövlət katibi Entoni Blinkenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 28 aprel 2021-ci il tarixdə telefon zəngi zamanı “Azadlığa Dəstək Aktı” na 907-ci düzəlişin müvəqqəti dayandırıldığını bildirməsi Azərbaycan dövlətinin və onun Prezidentinin dünyada artan nüfuzundan xəbər verir. ABŞ-ın dövlət katibi Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin daha da möhkəmləndirilməsinin önəmini qeyd edərək enerji təhlükəsizliyi, regional təhlükəsizlik sahəsində əməkdaşlığı qeyd edərək Cənub Qaz Dəhlizi layihəsinin uğurla icra edilməsinin əhəmiyyətini vurğulamışdır.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan- ABŞ əlaqələrinin zəngin tarixə malik olduğunu qeyd edərək, Cənub Qaz Dəhlizi layihəsinin icrasına verilən dəstəyə görə ABŞ hökumətinə təşəkkür etmişdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan müharibəsindən sonrakı vəziyyətlə bağlı fikir mübadiləsi aparılmış, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyi bildirilmiş, ölkəmizin Ermənistan tərəfindən dağıdılan ərazilərində bərpa işlərinə başlandığı qeyd olunmuşdur. Cənab Prezident İlham Əliyev eyni zamanda regionda kommunikasiyaların açılmasının əhəmiyyətini qeyd edərək uzunmüddətli sülhün təmin edilməsi ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdırmışdır.

Ümumilikdə söhbət zamanı müzakirə olunan məsələlər barədə tərəflərin mövqeləri, ələlxüsus ABŞ-ın “Azadlığa Dəstək Aktı” na 907-ci düzəlişin müvəqqəti dayandırıldığının bəyan edilməsi ikitərəfli əlaqələrin bundan sonra daha da inkişaf edəcəyindən xəbər verir.

***Rauf Əliyev, Milli Məclisin deputatı***

## Sahil Babayev: “Əlilliyin müəyyən olunması” meyarlarının yeni layihəsində bir sıra yeniliklər nəzərdə tutulur



Vətən müharibəsində yaralanmış hərbçilərin əlilliklərinin qiymətləndirilməsi sahəsində xeyli işlər görülüb. Artıq 405 qaziyə əlillik təyinatı aparılıb və proses davam edir. İndiyədək 17 qazi yüksək texnologiyalı protezlərlə təmin edilib, nazirliyin reabilitasiya müəssisələrində 105 qazi stasionar müalicə alır, 1200-dən çox qaziyə psixoloji xidmət göstərilib. AZƏRTAC xəbər verir ki, bu fikirləri Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Milli Məclisin Əmək və sosial siyasət komitəsində keçirilən dinləmədə deyib.

Nazir “Əlilliyin müəyyən olunması” meyarlarının yeni layihəsində bir sıra yeniliklərin nəzərdə tutulduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, əlillik artıq üç dərəcə ilə və ya sağlamlıq imkanları məhdud kimi dar çərçivədə deyil, daha geniş spektrdə, faiz diapazonunda dəyərləndiriləcək.

## Fuad Zeynalov “Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə” medalı ilə təltif olunub



Dünya çempionu, əməkdar məşqçi, əməkdar idman ustası, Sərhədçi İdman Olimpiya Mərkəzinin baş məşqçisi, sərhədçi zabiti mayor Fuad Zeynalov 44 günlük Vətən müharibəsində göstərdiyi fədakarlığa görə, “Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə” medalı ilə təltif olunub. Fuad Zeynalov SİA-ya açıqlamasında öz təəssüratını bu cür ifadə edib: “Təltif olunmağıma görə, Ali Baş Komandan, Prezident İlham Əliyevə, eləcə də Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevə dərin təşəkkürünü bildirirəm. Azərbaycan Respublikasına Xidmət edirəm”.

# Zamana qalib gələn LİDER

## 98-ci ildönümünü qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin memarıdır

**Hər bir xalqın sakit, rəvan yaşam nizamını, dövlətin müstəqilliyinin möhkəmlənməsini o xalqın liderləri tənzimləyir və həyata keçirirlər. Bu baxımdan, o xalqlar xoşbəxt xalqlardır ki, böyük gücə və idarəetmə qabiliyyətinə, eləcə də xalqını bəlalardan qoruyub, dövlətini inkişaf etdirən liderləri var. Ancaq bəzən xalqını arxasınca aparmaq məharətinə sahib lider problemi yaşayan xalqlar da olur.**

1991-1993-cü illərdə Azərbaycanın üzləşdiyi ağır, üzücü problemlər, siyasi, iqtisadi və sosial böhranlar məhz liderin olmaması səbəbindən baş vermişdir. O dövrdə müstəqillik yollarında ilk addımlarını atan Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Zor gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkənin müstəqilliyini məhv olmaqdan, xalqı üzləşdiyi bəlalardan xilas etmək üçün düşünülmüş tədbirlər görmək iqtidarında deyildi. Siyasi baxımdan təcrübəsiz, dövlət idarəçiliyində heç bir təsəvvürə malik olmayan hakimiyyət ölkəni ağır bəlalara sürükləyirdi. Ölkədaxili vəziyyətin idarəolunmaz durumda olmasından istifadə edən erməni hərbi birləşmələri ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Bu kimi ağır problemlərin həllinə səy göstərməkdənsə AXC-Müsavat iqtidarı narazı xal-



*Amin İsmayılov,*
*Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü*

qın üzərinə güc strukturlarını göndərir, onları zor gücünə sakitləşdirməyə çalışırdı. 1993-cü ilin iyun hadisələri ölkədaxili ağır durumun kulminasiya nöqtəsi oldu. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi.

Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütlələri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxarılması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. Bu məqsədlə xalqımızın milli maraqları ətrafında birləşən sağlam qüvvələri, YAP-ın qızıl fondu hesab edilən 91 ziyalı 1992-ci il oktyabrın 16-da Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz




adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

24 oktyabr 1992-ci il də ziyallara cavab məktubunda Ümummilli Lider Heydər Əliyev: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər", deyərək yaradılması nəzərdə tutulan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılığını verir.

### Tarixi zərurətdən yaranan partiya

Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli Lider Heydər Əliyevin YAP-ın Sədr seçilməsi Azərbaycanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət idi. O ağır tarixi hadisələr barədə Ulu Öndərimiz Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir. Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

Ümummilli Liderimiz Heydər Əliyevin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Azərbaycan Prezidenti İlham Əliyev Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda çıxışı zamanı bildirdi ki, bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi: "Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı Ona müraciət etmişdir. 1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin Sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya Azərbaycan təcavüzkar dövlətdir və Azərbaycan Ermənistana qarşı təcavüz edir. Halbuki bizim torpaqlarımız işğal altına düşürdü".

Məhz 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan həm də, dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Bu baxımdan haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, "mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun".

### Azərbaycan yeni inkişaf mərhələsində

Dahi Öndərimiz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkə də yaranan ictimai siyasi sabitlik, iqtisadi dirçəliş xalqın əyilmiş qəddini düzəltdi. Xalq öz liderinə buna görə öz təşəkkürünü bildirmək üçün Ona bir ad verdi- Ümummilli Lider. Ümummilli Lider Heydər Əliyev əhalinin sosial-iqtisadi durumunun yaxşılaşdırılması üçün ilk öncə ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması

# Zamana qalib gələn LİDER

## 98-ci ildönümünü qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin memarıdır



Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı. Bu müqavilədən sonra xeyli sayda neft-qaz sazişləri imzalandı. Hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 120 milyard dollardan artıq olması da deyilənlərin təsdiqidir. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndər Heydər Əliyev iqsadi inkişafı təmin etməklə yanaşı digər sahələrdə də mühüm addımlar atdı, qərarlar imzaladı.

1995-ci ilin noyabrında Dahi Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizin gələcəyinin müəyyənləşdirilməsində mühüm istiqamətlərdən oldu. 1998-ci il də Ulu Öndər Heydər Əliyevin qərarı ilə Şərqdə ilk dəfə olaraq ölüm hökmünə qoyulan moratorim tamamilə ləğv edildi. Yüksək humanizmə söykənən bu addım Azərbaycanın beynəlxalq nüfuzunun artmasına səbəb oldu və 2001-ci ilin 25 yanvarında Azərbaycan Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edildi. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan dövlətinin ətrafında sıx birləşməsinə nailı olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaldı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən həmin ilin noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Bütün bunlara əsaslanaraq birmənalı şəkildə o faktı qeyd etmək olar ki, Dahi Öndər Heydər Əliyev Azərbaycan dövlətinin qururusu, xalqımızın xilaskarı olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf strategiyası həyata keçirməklə sübuta yetirib.



### Ümummilli Lider Heydər Əliyevin ideya və idarəçilik məktəbinin əbədiyaşarlığı təmin edilib

2003-cü ildən sonra Ümummilli Lider Heydər Əliyevin ideya və idarəçilik məktəbinin əbədiyaşarlığı ölkə Prezidenti, YAP-ın Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ulu Öndər Heydər Əliyevin idarəçilik ənənələrini yeni dövrün tələblərinə uyğun daha da zənginləşdirən Prezident İlham Əliyev xalqın problemlərinə, arzu və istəklərinə həssaslıqla yanaşır və dövlətimizin beynəlxalq aləmdə imicinin möhkəmlənməsinə, sosial-iqtisadi gücünün, hərbi-siyasi qüdrətinin daha da artmasına əhəmiyyətli töhfələr verir. Hələ 2003-cü il prezident seçkiləri ərəfəsində Ulu Öndərimiz Heydər Əliyev demişdir: “İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Bəli, Prezident İlham Əliyev Ulu Öndərimiz Heydər Əliyevin Ona olan inam və etimadını ən yüksək səviyyədə doğrultdu. Son 17 ildə Azərbaycanın daxili və xarici siyasətdə qazandığı uğurlar bir daha sübut etdi ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursu və Azərbaycan dövlətçiliyi etibarlı əllərdədir. Mövcud reallıqlar və beynəlxalq maliyyə institutlarının yaydıqları hesabatlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində ölkəmiz dünyanın ən aparıcı, qüdrətli dövlətlərdəndir. 2018-ci ilin 11 aprel seçkilərindən sonra Azərbaycan daha da güclənib, zənginləşib, hərtərəfli inkişaf yolunda yeni uğurlara imza atıb. Xüsusilə 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın azad edilməsi Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharətinin nəticəsidir. 44 gün davam edən müharibədə Ermənistan ordusu darmadağın edildi və “Dəmir yumruq” əməliyyatı Azərbaycanın Parlaq Qələbəsi ilə başa çatdı.

Bir sözlə, Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu müdrik siyasət və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmiz sabitlik adasına, iqtisadi inkişafın yüksək səviyyədə bərqərar olduğu dövlətə çevrilib. Təbii ki, nə qədər Azərbaycan xalqı və dövləti var, bu siyasət dəyişməyəcək. Bu isə onu deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin davam etdirilməsi ilə Azərbaycan xalqı və dövləti yeni-yeni uğurlar qazanacaq, nailiyyətlər əldə edəcək.



## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümüdür

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində vətən və xalq qarşısında misilsiz xidmətlər, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi nümunəsi göstərmişdir. Bir qərinədən də çox zaman kəsiyində Azərbaycana rəhbərlik etmiş ulu öndər Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu xalqımızın rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanmışdır.

Keçən əsrin 30 ili Azərbaycan tarixi üçün Heydər Əliyev dövrü olub. Heydər Əliyev Azərbaycan milli tarixində özünəməxsus yer tutan elə nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hələ uzun müddət politoloqların, filosofların, tarixçilərin və tədqiqatçıların diqqət mərkəzində olacaqdır. O, Azərbaycan xalqının müstəqillik mübarizəsindəki misilsiz xidmətləri ilə hələ sağlığında canlı əfsanəyə çevrilmiş, bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdı.

1993-cü ilin iyun ayında dünya şöhrətli siyasi şəxsiyyət Heydər Əliyevin xalqın çağırışı ilə yenidən respublika rəhbərliyinə qayıdışı Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinə aparan təhlükəli proseslərin, vətəndaş qarşıdurmasının, xaos və anarxiyanın, cəmiyyətdə artan iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyin qarşısını aldı. Bu tarixi qayıdış ölkədə ictimai-siyasi sabitliyin bərqərar olaraq möhkəmlənməsi şəraitində müstəqil dövlət quruculuğuna, respublikamızda sosial-iqtisadi dirçəlişə, ölkəmizin müstəqil siyasət yürüdərək dünya birliyində mövqeyini gücləndirməsinə imkan verdi.

Qeyd olunmalıdır ki, ümumilikdə 1993-2003-cü illər Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin qurulması və uzunmüddətli inkişaf yoluna səfərbər olunması təmin edilərək bir çox sahələrin inkişafına zəmin yarandı.

Biz də gənclər olaraq fəxr hissi ilə dərk etməliyik ki, ölkəmizi dünyaya tanıdan, ona beynəlxalq aləmdə nüfuz qazandıran Ümummilli lider Heydər Əliyev siyasəti uğurlu sabahımızın təminatçısıdır.

***Hüseynxan Hacızadə,***
***YAP Gənclər Birliyinin üzvü***

# TARİXİN ƏN BÖYÜK YANLIŞLIĞI

**Aprelin 24-də ABŞ-ın 46-cı prezidenti Cozef Baydenin 1915-ci il hadisələri ilə bağlı səsləndirdiyi fikirləri tarixi həqiqətlərin təhrif olunmasıdır, həm də qeyri-real olan "erməni soyqırımı" ifadəsinin ABŞ kimi nüfuzlu bir dövlətin başçısının dilindən eşitmək məyusedicidir.**

78 yaşlı ABŞ Prezidenti Co Bayden 1915-ci il hadisələrindən danışarkən "soyqırımı" ifadəsini işlədərək bildirib ki, bu ifadəni kimisə günahlandırmaq üçün yox, faciələrin təkrarlanmaması üçün işlədir. C.Bayden NATO üzrə çox güclü müttəfiqi olan Türkiyəni qəzəbləndirməmək üçün, bu cür yumşaq və ehtiyatlı ifadələr işlətməyə çalışsa da, faktiki olaraq dost və qardaş Türkiyəyə neqativ münasibətini ortaya qoymaqla böyük bir risk və ədalətsizlik etmişdir.

Əfsuslar olsun ki, erməni uydurmalarını həqiqət kimi qəbul edib tarixdə heç vaxt olmayan qondarma "erməni soyqırımı"nın törədildiyini iddia edən ABŞ prezidenti 30 il əvvəl real həyatda baş vermiş dəhşətli faciəni - ermənilərin Azərbaycanın Xocalı şəhərində törətdikləri soyqırımı unudur.

Tarixən millətçilik, faşizm, işğalçılıq və terrorizm ideologiyası üzərində qurulan erməni terror təşkilatları türk-müsəlman əhalisinə, hökumət adamlarına qarşı qanlı sui-qəsdlər törətmiş, terror aktlarının, qətliamların, soyqırımlarının təşkilatçısı və icraçıları olmuşlar. Saysız-hesabsız tarixi sə-



nədlərlə təsdiq olunan bu faktlar qarşısında erməni millətçilərinin uzun illərdir ki, Osmanlı İmperiyasının varisi olan Türkiyəyə qarşı əsassız "soyqırım" iddiaları absurddur. Avropa məhkəməsinin təsdiq etməkdən imtina etdiyi və əsassız faktlara söykənən "soyqırım" sayıqlamasının indi şişirdilərək ABŞ Prezidenti tərəfindən rəsmi bəyanatda səsləndirilməsi ABŞ-ın milli və strateji maraqlarına uyğun deyil. ABŞ siyasəti üçün bu utancverici və düşüncəsiz bəyanat C.Baydenin erməni lobbisi ilə seçki kampaniyası üçün siyasi bazarlığının rüsvayçı nəticəsidir. Həmçinin günbəgün güclənən, öz milli maraqlarını hər şeydən üstün tutan, "idarə olunmayan" Türkiyəyə qarşı siyasi təzyiqdir.

"Soyqırımı"na məruz qalmış bir xalq kimi özünü təqdim edən, bütün dövlətləri də bu yalanlara inandırmağa çalışan Ermənistanın mövcud olduğu qısa bir tarix ərzində azərbaycanlılara qarşı dəfələrlə qətliamlar, soyqırımlar, təxribatlar etdiyinin şahidi olmuşuq. 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın faktlarla sübut edilmişdir. Rəsmi mənbələrə əsasən soyqırım nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür. Quba rayonundakı məzarlıqda tapılan sümüklərin ermənilərin 1918-ci ildə törətdiyi soyqırım qurbanlarına aid olduğu təsdiqlənmişdir. Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

Tarixi hadisələr faktlarla sübut edir ki, dünyada erməni yalanlarına bizim qədər bələd olan ikinci ölkə yoxdur. Bu mənada, Türkiyəyə qarşı yönəlmiş hər hansı bir addım bizə qarşı yönəlmiş təhdiddir. Türkiyəni tam dəstəkləyir və bütün istiqamətlər üzrə qardaşlıq missiyamızı yerinə yetirəcəyik, qeyri-real hadisələrin araşdırılmadan, faktlara əsaslanmadan "erməni soyqırımı" kimi Cozef Bayden tərəfindən təqdim edilməsini qınayır və qubuledilməz hesab edirik.

***Fəxrəddin Vəliyev,***
***YAP Şəmkir rayon təşkilatının sədri***



# Azərbaycan Dövlət Neft Akademiyasında törədilən faciədən 12 il ötür

**İyirmi birinci yüzillik bəşər sivilizasiyasının yüksək nöqtəsidir. Ağıl və idrakın sivil bir nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi nə dərəcədə qəbul ediləndir? Amma əfsuslar olsun ki, dünya inkişaf etsə də, bu gün ağıla sığmayan terrorların, faciələrin baş verdiyinin şahidi oluruq. Nə qədər müasirləşsək belə insan qanının tökülməsinə susayan, bunu törətməkdən usanmayanlarla hələ də bir zamanda yaşayırıq. İnsanlıq əleyhinə çevrilmiş terrorların günahsız qurbanları olanların faciəli ölümləri hər kəsdə bir nifrət, qəzəb hissini oyadır.**



30 aprel. Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) 30 aprel, 2009-cu il tarixində baş vermiş faciənin törədildiyi gün. Həmin günü o zamanı yaşayan insanlar olduğu kimi yaxşı xatırlayır. Səhər saatlarında 9:30 radələrində keçmiş Azərbaycan Dövlət Neft Akademiyasının Bakı şəhəri Dilarə Əliyeva küçəsində qaz-neft mədən və neft mexanikası fakültələrinin yerləşdiyi ikinci korpusuna daxil olan cinayətkarın birinci mərtəbədən altıncı mərtəbəyədək qarşısına çıxan şəxslərə "Makarov" tipli tapançadan atəş açması nəticəsində 12 nəfər həlak olub, 13 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Gülləyə tuş gələnlər arasında təhsil ocağının professorları, müəllimləri, laborantları və tələbələri olublar. Yaralıların 3-ü xarici vətəndaşı idi: ikisi Sudan, biri isə Suriya. Hadisə yerinə dərhal polisin xüsusi təyinatlı nizami hissəsinin, ərazi polis və prokurorluq orqanlarının məsul əməkdaşları gəliblər. Polis tərəfindən zərərsizləşdiriləcəyini görən silahlı cinayətkar özünü öldürüb. Cinayəti törətmiş 1980-ci il təvəllüdlü Gürcüstan vətəndaşı Qədirov Fərda Əsəd oğlunun üstündən ona məxsus şəxsiyyət vəsiqəsi, "Makarov" tipli tapança, habelə hər biri 40 güllə tutumlu və içərisində 71 güllə olan xüsusi usulla hazırlanmış 3 patrondaş, 2 tapança sandıqçası aşkarlanaraq götürülüb. Cinayət işi üzrə təqsirli bilinən dörd nəfər də layiqli cəzalarını alıblar.



Aprelin 30-da Dövlət Neft Akademiyasında baş vermiş faciəli hadisə nəticəsində həlak olanların ailələrinə və ağır xəsarət alanlara maddi yardım ayrılması haqqında Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin Ehtiyat Fondundan həlak olanların ailələrinə 30 min manat, ağır xəsarət alanlara isə 15 min manat birdəfəlik maddi yardım ayrıldı.12 il əvvəl baş vermiş dəhşətli terror hadisə hər kəsin qəlbində dərin iz buraxıb. Belə terror aktları neçə-neçə insan ömrünü yarımçıq qoyur. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində faciə qurbanlarının xatirəsinə barelyef qoyulub. Hər il 30 aprel terror qurbanlarının xatirəsi yad edilir.

***Zümrüd BAYRAMOVA***

# Peyvənd olunanların sayı açıqlandı

**Azərbaycanda dünən 15 465 nəfər vaksinasiya olunub. Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb. Gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 6 259, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 9 206 nəfər təşkil edib.**



Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 1 471 579, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 959 804, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 511 775 nəfər təşkil edir.

**"44 günlük Vətən müharibəsində Azərbaycanın parlaq Qələbə qazanması və Ermənistanın kapitulyasiya aktına imza atması Ermənistan daxilində böyük böhrana yol açıb. Bu gün Ermənistanda bütün sahələr tənəzzülə uğrayıb, hakimiyyət uğrunda mübarizə daha da dərinləşib". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Cavid Osmanov deyib.**



# "Ermənistanda vətəndaş qarşıdurması artacaq"

O bildirib ki, Ermənistanda hökm sürən xaos, anarxiya və eyni zamanda, vətəndaş qarşıdurması ilə müşayiət olunan böhranlar bu ölkənin baş naziri Nikol Paşinyanın iyun ayında keçirilməsi nəzərdə tutulan seçkilərlə bağlı istefa verməsindən sonra daha da dərinləşib: "Bu gün Ermənistanın daxilindəki vəziyyət Paşinyanın istefasından sonra daha da ağırlaşıb. Hakimiyyət uğrunda mübarizə aparmaq üçün müxtəlif ritorikalardan istifadə olunur. Bir tərəf revanşist düşüncə ilə hakimiyyətə gəlmək niyyətində olsa da, digər tərəf tamamilə fərqli mövqe nümayiş etdirir".



C.Osmanov qeyd edib ki, hazırda Ermənistanın daxilində baş verən qarşıdurmalar iyun ayında keçiriləcək seçkilərə qədər daha da mürəkkəbləşəcək, xaotik vəziyyət alacaq: "Bir sözlə, ifadə etsək, yaxın aylarda Ermənistanda vətəndaş qarşıdurması daha da şiddətlənəcək".

***Gülyana***

# “Yer tikanlardan təmizlənməsə, güllərin inkişafı mümkün olmaz”



*SİA Hacı Şahinin müsahibəsini təqdim edir:*

***- Son dövrlər gənclərimizi digər dinlərə yönəltmək üçün güclü təxribatlar aparılır və az da olsa bununla bağlı nəticələr əldə edilir. Bu, bizim və din xadimlərimizin zəifliyindən irəli gəlir?***

- Əlbəttə, bütün bu hallara görə ilahiyyatçılar və din xadimləri müəyyən qədər məsuliyyət daşıyır. Azərbaycanda uzun illərdir ilahiyyat və din sahəsində fəaliyyət göstəririk. Mən deməzdim ki, başqa dinlərə filan kütləvi axın var. Ümumiyyətlə, biz qapalı bir mühitdə yaşamırıq və dünyaya inteqrasiya olunuruq. Ən müxtəlif fikirlər sosial şəbəkələr vasitəsilə gənclərə təqdim olunur. Belə bir şəraitdə təbii ki, hazırlıqlı olmaq lazımdır. Müasir dövrdə insanları düşündürən sualları ilahiyyatçılar cavablandırmalıdır. Din heç zaman insanı inkişafdan saxlamır. İndi yeni nəsil ilahiyyatçılar din xadimləri formalaşır. Azərbaycanda dinlə bağlı təhsil müəssisələri var və İlahiyyat İnstitutu təsis edilib. Qafqaz Müsəlmanları İdarəsində din xadimlərinin mütəmadi olaraq təkmilləşdirmə kurslarını təşkil edirik. Hər bir halda günü-gündən din xadimlərinin peşəkarlıq və hazırlıq səviyyəsi artmalıdır. Bir az da eyforiya olur, yəni hansısa bir cərəyana qoşulur və bunun dəfələrlə şahidi olmuşuq ki, eyforiyadan sonra yenidən bizə üz tutaraq, səhv olduqlarını deyirlər. Biz ittiham dilində danışmamalıyıq. Mən düşünürəm ki, Azərbaycan gəncliyi korlanmayıb. Gənclik intellektual və mənəvi yöndə inkişaf edir. Mən ittiham etməyin tərəfdarı deyiləm və gənclərimiz haqqında çox nikbinəm düşünürəm. Hesab edirəm ki, əksinə, dinimizə maraq günü-gündən artır.

***- Hacı, bəs, uşaq yaşlardan dinə, namaza məhəbbət düzgün formada necə formalaşdırılmalıdır?***

- Çox yaxşı sualdır. Uşaqların tərbiyəsi ilə bağlı ailələrdə dinimizin müəyyən bir konsepsiyası var. Bəzən valideynlər dindar uşaq formalaşdırmaq üçün az yaşlarından onu dini məlumatlarla yükləməyə çalışırlar. Dinimiz bizə 7 yaşa qədər uşaqların sərbəst buraxılmasını tövsiyə edir. Yəni, 7 yaşa qədər uşaq öz istədiyini etməlidir. Təbii ki, biz onları qorumalıyıq. Amma ona qadağa tətbiq etmək də düz deyil. 7 yaşa qədər şəxsiyyətin təməli qoyulur və əsası formalaşır. Biz övladlarımıza şəxsiyyət verməli və onlarla şəxsiyyət kimi rəftar etməliyik. 7 yaşdan 14 yaşa qədər övladlarınıza ədəb öyrədin, onları itaətə alışdırın.

***- Allahın hər yerdə olduğu deyilir. Bəs, nə üçün dua edəndə göyə baxırıq?***

- Bəli, Allah hər yerdədir. Ucalığı tərənnüm etdiyi üçün, əlimizi onun dərgahına qaldırırıq.

***- Allah heç bir cinsə mənsub deyil. Yəni, bizə nurdan ibarət olduğu öyrədilib. Digər dillərə tərcümədə Allahı, məhz kişi cinsində işarə edirlər. Hətta bəzən yaşlılarımız uşaqlara bunu izah edəndə “Allah baba” anlayışından istifadə edir. Sizcə, bu, düzgündür? Bu, yaradanı insanların təfəkküründə yanlış şəkildə canlandırmaqdır?***

- Yaradanın cinsi yoxdur. Cinsiyyət ümumiyyətlə, yaradılmışlara aid olan mövzudur. Quranda deyilir ki, Allah nə doğulub, nə də doğub. Biz dünyada hər şeyi ya kişi, ya da qadın kimi görmüşük və həmişə cütlər arasında cinsiyyət bölgüsü olub. Nəticədə, istəyirik ki, təsəvvürümüzdə olan formanı Allaha verək. Uşaqlara bu cür anlayışlar aşılamaq düzgün deyil. Onlar Allahı ağ saqqallı kişi kimi təsəvvür edirlər. Allah bənzərsizdir və onun cinsiyyəti yoxdur.

***- Kişilər paltarsız belə namaz qıla bildiyi halda qadınlarda niyə bir saç telinin belə görünməsi yolverilməzdir?***

- Kişilərdə də bədənin əsas hissəsi örtünməlidir. Burda Allahdan gizlənmə nəzərdə tutulmur və Allahın hüzurunda ədəb saxlamaq məhəbbətlə ziddiyyət təşkil etmir. Biz Allahla münasibəti bəzən səthi münasibətlər səviyyəsinə endiririk. Allah çox uca və əzəmətli bir varlıqdır. Ona sayğı olaraq onunla bizim aramızda məhrəm var. Bu, Allah qarşısında bədənimizin zahiri ədəb qaydasıdır.

***-Ölü insana toxunduqdan sonra niyə qüsl alınır?***

- Bəzi məsələlər var ki, ona aydınlıq gətirmək olmur. Sadəcə, bilməliyik ki, işin qaydası budur. Yəqin ki, bu, hər hansı bioloji məsələlərlə bağlıdır və ya insana ölümü xatırlatmaq məqsədi daşıyır.

***- Keçmiş dövrlərdə insanlar Allahın varlığına inanmadıqları təqdirdə, onlara bu möcüzələr sübutlarla göstərilib. Onlar niyə Allaha inanmayıb?***

-Bizim imanımız möcüzəyə, təfəkkürə əsaslanmalıdır. İnsan nə qədər primitiv düşünürsə, bir o qədər də qeyri-adi hadisələrə daha çox istinad etməyə hazırlaşır. Bəşəriyyət öz yetkinlik dövrünə çatıb və din daha çox təfəkkür üzərində yüklənib. İman təfəkkürdən və düşüncədən qaynaqlanmalıdır. Möcüzə isə insana qısa bir müddət yardım edə bilər.

***-Quranda qəbul edilən bəzi cümlələr dönəm dəyişdikcə öz mahiyyətini itirib. Məsələn, kişinin birdən çox qadınla evlənməsi, yaxud erkən yaşda evlilik indiki dövrdə birmənalı olaraq pis qarşılanır. Əgər Quranda son kitab olaraq hər şey düşünülübsə, niyə bu gün ziddiyyətlərlə qarşılaşırıq?***

- İslam çoxarvadlılığa təşviq etmir, icazə verir. Bunlar arasında fərq var. Bəzən isə zərurət olur. Məsələn, müharibə dövründə qadınlar başsız qalır və insanlar onu himayə etmək üçün evləndirir. O vaxtlar əksinə, insanların subay qalması yaxşı qarşılanmırdı.

***-Yəhudilikdə və xristianlıqda əhəmiyyətli yerə sahib olan bir qadın obrazı var. Belə ki, o qadının Adəmin qabırğasından deyil, palçıqdan yaradıldığı deyilir. İslam dinində bu qadına yer verilirmi?***

- İslam dinində o qadın Həvvadır. Həvvanın Adəmin qabırğasından yaranması yanlışdır. Belə bir fikir dinimizdə yoxdur. O yəhudi dinində olmuş bir sözdür. Bəzi dinlərdə qadın təhqir olunmuş aşağı bir varlıq sayılır.

***-Adəmlə Həvvadan sonra insanların yaranması necə davam edib?***

-Deyirlər ki, onlardan öncə başqa varlıqlar yaşayıb.

***-Təkamül nəzəriyyəsinin İslamda yeri nədən ibarətdir?***

-Təkamül nəzəriyyəsi tam olaraq sübuta yetirilmiş nəzəriyyə deyil və dində ziddiyyəti yoxdur .

***-Orqan bağışlamaq bir insanın həyatını xilas edirsə, nə üçün dində günah sayılır?***

- Orqan bağışlamaq dində günah sayılmır. İnsan orqanını hədiyyə edə bilər. Amma şərt qoyulur ki, ondan sonra yaşamaq məşəqqətli olmasın. Yəni, iztirab içində yaşamasın.

***-Astral səyahət həqiqətən mövcuddur?***

-Dinimizdə bununla bağlı heç bir fikir yoxdur.

***-Reenkarnasiyanın islam dinində mövcudluğu nədir?***

-Reenkarnasiya islam dinində qəbul olunmur. Ruh bir cismə aiddir. Ruhun cisimdən cismə keçməsi qəbuledilməzdir. Yəni, hər ruh bir şəxsiyyətdir və bir bədəndə olur.

***-Allahın verdiyi canı yalnız Allah alırsa nə üçün edam cəzası var?***

-Edam cəzası elə Allahın cəzasıdır. Allah özü təyin edir. Bəzən zərurət yaranır və Allah buyurur ki, bu şəxsi edam edin. Çünki yer tikanlardan təmizlənməsə, güllərin inkişafı mümkün olmaz. Günahsız insanı öldürmək bütün insanlığı öldürmək kimidir.

***Ayşən Vəli***

## Minalar əleyhinə milli standartlar hazırlanıb




“Biz çox vacib hüquqi-normativ sənədlər hazırlamışıq”. “İki sahil” xəbər verir ki, bunu Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyəti sədrinin müavini Samir Poladov “İkinci Qarabağ müharibəsi və minalar” adlı vebinarda çıxışında deyib. Samir Poladov bildirib ki, buraya standartlar da daxildir: “Minalar əleyhinə milli standartlar hazırlanıb. Bununla yanaşı, minalardan təmizləmə prosesində iştirak edən bütün tərəflərin əlaqələndirmə mexanizmi hazırlanıb. ANAMA təşkilatı hazırda kifayət qədər çətin və mürəkkəb dövrü yaşayır. Minalardan təmizləmə ilə bağlı ehtiyacların qarşılanması üçün əlimizdən gələni əsirgəmirik. Bir çox şirkətlərin Azərbaycanda iş və fəaliyyət aparmaq maraqları var. Gələcəkdə bu təşkilat və şirkətlərin fəaliyyəti üçün əlaqələndirmə işi vacibdir. Minalardan çirklənmiş ərazilərdə bir sıra risklər var. Bu minalar əsasən, Rusiya və Ermənistan istehsalı olan tank və piyada əleyhinə olan müxtəlif növ minalardır. Çox nadir hallarda yalnız bir növ minalara rast gəlirik. Çox yerdə qarışıq minalar yerləşdirilib. Qəlpələr çox sayda olduğu üçün onların neytrallaşdırılması çox çətinləşir. Külli sayda partlamamış hərbi sursatlar da əlavə problemdir”.

## Ermənistan Azərbaycanla sərhəddə neytral zona yaratmaq istəyir

Ermənistanın Milli Təhlükəsizlik Xidməti rəhbərinin müavini Stepan Melkonyan bildirib ki, əhalinin, o cümlədən sərhəd xidmətinin şəxsi heyətinin təhlükəsizliyini təmin etmək üçün Ermənistan-Azərbaycan sərhədində neytral zona yaratmaq lazımdır. “Hər iki tərəfdə, xüsusən də qarşı tərəfin hərbçiləri ilə təmasların istisna ediləcəyi neytral bir zona var. Bura mühəndis konstruksiyalarının köməyi ilə sərhəd təhlükəsizliyini təmin etmək üçün sərhəd boyunca bir zolaqdır”, deyə MTX rəsmisi bildirib. S.Melkonyan xatırladıb ki, Ermənistan-Türkiyə sərhəddində də oxşar neytral zona var.

Mart ayının sonunda Ermənistanın Baş naziri Nikol Paşinyan Ermənistan və Azərbaycanın bölgədəki düşmənçilik problemini həll etmək üçün bütün kommunikasiyaların açılmasının vacib olduğunu bildirmişdi. Azərbaycan Prezidenti İlham Əliyev də öz növbəsində Bakının İrəvanla münasibətləri normallaşdırmağa hazır olduğunu və sülh müqaviləsinin imzalanmasını da istisna etməmişdi.

# Buzlaqlar sürətlə əriyir

**Peyk görüntüləri buzun hər zamankından daha sürətlə əriməsini göstərib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, peyk ölçmələri dünyadakı dağ buzlaqlarının daha sürətlə əridiyini göstərir və cari il 15 il əvvələ nisbətən 31% daha çox qar və buz itkiyə uğrayıb.**



“Nature” jurnalında yayımlanan bir araşdırmaya görə, elm adamları 20 illik peyk məlumatlarını istifadə edərək, 2015-ci ildən bəri dünyanın 220.000 dağ buzlaqının 328 milyard tondan (298 milyard ton) buz və qar itirdiyini hesablayıblar. Bu, İsveçrəni hər il təxminən 7,2 metr suyun altına salmaq üçün kifayətdir. 2015-ci ildən 2019-cu ilə qədər olan illik ərimə nisbəti 2000-2004-cü illərdəkindən 78 milyard ton çoxdur.

Buzlaqlar sürətlə əriyir. İtmiş suyun həcmindən başqa, buzlaqlarda qlobal seyrəlmə dərəcələri son 20 ildə iki dəfə artmışdır. Dünyadakı buz itkisinin yarısı ABŞ və Kanadada baş verir. Alyaskadakı ərimə nisbətlərinin planetdəki ən yüksək göstəricilərdən biri olduğu məlum oldu. Məsələn, Kolumbiya buzlağının ildə təxminən 35 metr geri çəkildiyi məlum oldu. Araşdırmaya görə, İslandiyada və Skandinaviyada artan yağışların başlədiyi bir neçə istisna olmaqla, əvvəllər Tibetdə sabit olan buzlaqlar da daxil olmaqla, dünyanın dəmək olar ki, bütün buzlaqları əriyir. Bundan əlavə, dünyada ərimə tempi sürətlənir.

ARAŞDIRMA

Bu isə qlobal temperatur artımını əks etdirir. Araşdırmaya rəhbərlik edən buzlaq mütəxəssisi Romain Hugonnet bildirib: “Bunun kömür, neft və qazın yanmasından qaynaqlanır. Bəzi kiçik buzlaqlar tamamilə məhv olur”. R.Hugonnet iki il əvvəl, İslandiyadakı elm adamları, fəallar və dövlət məmurları ilə bu mövzuda məlumatları artırmaq üçün “kiçik bir buzlaq əriməsi” adlı tədbir təşkil ediblər.

***Qönçə Quliyeva***

# Bayden "genosid" deyəcək, sorosçu təşkilatlar ölkəmizdə "işləməyə" davam edəcək

**Beləliklə, gözlənilən olay baş verdi və əslində, heç bir real fəaliyyət planı olmayan baş sorosçu, sahib(lər)inin tapşırığını yerinə yetirdi və "genosid" ifadəsini səsləndirdi. Bununla da, həm siyasi meydanda həm döyüş meydanında Azərbaycan-Türk birliyinə məğlub olaraq, amerikan-erməni birliyi bizlərə dil uzatdı və əslində, bununla da Türk birliyi qarşısında öz acizliyini nümayiş etdirdi. Fəqət, bizlər də bu hiddət doğuran məsələnin üzərindən sadəcə "mövzu gündəmdən çıxdı", ya da "olan-oldu, keçən-keçdi" deyərək, keçməli deyilik - sona qədər, mövcud olan faktlarla ifşaları ortaya qoymalıyıq.**

Bu məqmda diqqət çəkən daha bir məsələ isə bu oldu ki, Bayden özündə cürət tapıb heç bunu açıq şəkildə də ifadə etmədi, sadəcə, administrasiyasının "firmennı blankında" yazı paylaşdı. Belə görünür ki, Co sabah da qayıdıb deyə bilər ki, qoca kişiyəm, nə bilim nə yazıblar, xəbərim olmayıb, lap bizim bəzi məmurlarımız kimi... Amma hələ ki, uşaq kimi sevinir. Bayden ermənilərə deyir: "Gördünüz neylədim..?".

Və buradan bir haşiyəyə çıxaraq növbəti maraqlı faktı xatırlatmaq yerinə düşərdi.

Eynşteyn özünün 1951-ci ildə çəkilən bəlkə də ən məşhur şəklini fotoqraf Artur Sassa öz imzası ilə təqdim edəndə qeyd etmişdi: "...Bu jest bütün dünya üçün nəzərdə tutulub. Mülki şəxslər diplomatların özlərinə rəva bilmədiklərini edə bilir..."

Nə deyək, Allah sənə rəhmət eləsin ay Eynşteyn, yaxşı ki, sən dünyanın guya ən böyük diplomatı olmalı şəxsin olmayan "genosidi" tanımaqla "bütün dünyaya göstərdiyi dilinin" şahidi olmadın!

Bayden isə bu dili yalnız Türkiyəyə deyil, həm də minlərlə oğul və qızlarını itirən Azərbaycan xalqına da göstərdi. Minlərlə övladını itirən bir xalqın düşmənini dil göstərməklə dəstəkləmək nə siyasətə nə isə ümumbəşəri mənəvi prinsiplərə, dəyərlərə cavab vermir. Amma hamımızın uşaqlıqdan bildiyimiz məşhur bir deyim var: "Dostunu mənə göstər, sənin kim olduğunu deyim". Bunların dostu isə ermənilərdir: terrorizmi dövlət səviyyəsinə qaldıranlar, özlərinin xəstə təxəyyülünün məhsulu olan "Dənizdən-dənizə böyük Ermənistan" naminə minlərlə gəncin həyatına son qoyan və kökü, soyu bilinməyən bir köçəri tayfa!

## USAİD nəyə görə ölkədən çıxarılmalıdır?

Burada ən ciddi məqam həm də odur ki, əgər əvvəllər Konqres genosidlə, yaxud istənilən anti-Türk məqsədli qərarlar, qətnamələr qəbul edəndə, Dövlət Departamenti və onun bütün qurumları, məsələn səfirlik və yaxud USAİD sudan quru çıxaraq deyirdi ki, biz icra orqanıyıq, lakin Konqres qanunverici orqandır, yəni biz onların qərarlarına görə məsuliyyət daşımırıq. İndi isə artıq hər şey ortadadır. ABŞ-ın icra orqanının rəhbəri, ölkə başçısı, rəsmi şəxs olaraq "genosidi" qəbul etdi. Yəni Dövlət Departamentinə aid bütün qurumlar bu gündən sonra bu siyasi xətti dəstəkləməyə borcludurlar. Bir sözlə, Dovlət Departamenti bütün Türk dünyasını, o cümlədən Azərbaycanı rəsmi və ya qeyri-rəsmi olaraq özünə düşmən elan etdi. Bizim isə cavabımız adekvat olmalıdır və qəti şəkildə gecikməməlidir-bütün Amerika təşkilatları, USAİD basda olmaqla, dərhal ölkədən çıxarılmalıdırlar.

Bu arada, USAİD-lə bağlı Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin öz "Twitter" hesabında yazdığı bir məqamı da xatırlatmaq yerinə düşərdi. SİTAT: "Samanta Pauer bir tərəfdən Azərbaycan xalqına qarşı Xocalı soyqırımını və digər vəhşilikləri törədən müharibə cinayətkarı Serj Sarkisyanın tərəfini tutur, digər tərəfdən qondarma "erməni soyqırımı"nın tanınmasına çağırır. Burada bir şey digərinə ziddir. Ümid edirik ki, S.Pauer USAİD (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) direktoru olaraq bu məsələni erməni təbliğatı məqsədləri üçün istifadə etməyəcək". Buyurun, bu da rəsmi münasibət! Daha dəqiq desək, artıq Azərbaycan tərəfi ermənipərəstlikləri sübut olunan Amerika qurumlarına sərt və qəti xəbərdarlığını edib və əlbəttə ki, bu da davamlı xaraker alacaq!

Yuxarıda da qeyd etdiyimiz kimi, Co Baydenin dostu, ağası və sahibi, yəni daydayı olan şəxs dünya dövlətlərinin qəniminə çevrilmiş Corc Sorosdur. Artıq dəfələrlə sübuta yetirilib ki, bu adamın burnunu soxmadığı ölkə qalmayıb. Bu fırıldaqçı vaxtılə maxinasiyalar hesabına böyük kapital toplayıb indi də o milyardları ilə müstəqil siyasət yürütməyə çalışan dövlətləri məhv etməyə çalışır. Və o bu məqsədlər üçün həm müxtəlif dövlətlərin yardım fondlarından, habelə özünün vaxtı ilə yaratdığı çoxsaylı qeyri-hökumət təşkilatlarından istifadə edir. Və biz SİA olaraq bu haqda geniş məlumat vermişdik. Amma bizim ortaya fakt olaraq qoyduğumuz bir neçə yazımıza baxmayaraq, Corc Sorosun yaratdığı təşkilatlardan biri bu gün də Azrəbaycanda qanunsuz olaraq qalıb fəaliyyət göstərməsi ciddi suallar yaradır. Necə olur ki, bir çox təşkilatlar ölkəmizdən hələ 2014-cü ildən qovulur, lakin Şəqrq-Qərb İdarəetmə İnstitutu adlı bir təşkilat isə 10 ilə yaxındır ki, Azərbaycanda, özü də rəsmi qeydiyyatdan keçmədən fəaliyyətini davam etdirir. Qısacası, bu təşkilatın ətrafındakı müəmmalar haqqında məlumatları xatırladaq.



## USAİD birtərəfli olaraq Azərbaycan hökumətinin iştirakı olmadan SEDA layihəsinin icraçısı kimi məhz Sorosun (!) təsis etdiyi "Şərq Qərb İdarəetmə İnstitutunu" müəyyən edir

Beləliklə, 1988 -ci ildə Soros tərəfindən təsis olunan "Şərq-Qərb İdarəetmə İnstitutu" (ŞQİİ) adlı təşkilat hələ 2004-2006-cı illərdə digər qalmaqallı təşkilat kimi tanınan "Beynəlxalq Xilasetmə Komitəsi" adlı bir qurum vasitəsi ilə ölkəmizdə qısa müddətli layihə icra etməklə burdakı vəziyyəti təhlil etmiş və növbəti illərdə yeni layihələrlə gəlmək planları hazırlamışdır və bu təşkilat 7 aprel 2009-cu ildə Azərbaycanla ABŞ hökumətləri arasında "Amerika Birləşmiş Ştatların Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında "Azərbaycanda Seçilmiş Amerika Hökuməti Yardım Proqramlarının Birgə Maliyyələşdirilməsi üzrə Anlaşma Memorandum"u imzalandıqdan sonra fəallaşır. Sözügedən saziş çərçivəsində ölkələr ümumi məbləği 45 milyon ABŞ dolları həcmində vəsaiti dörd müxtəlif layihənin maliyyələşməsi üzrə razılığa gəlirlər ki, bu məbləğin də 20,7 milyon ABŞ dollarını Azərbaycan hökuməti USAİD-in hesabına köçürmüşdür. Dörd layihədən biri kimi "Regional Sosial İqtisadi İnkişaf Proqramı" (SEDA) adlı layihənin icrası da nəzərdə tutulurdu. Belə ki, bu proqram çərçivəsində bildirilir: SİTAT: "USAİD təfsilatlı regional sosial-iqtisadi inkişaf strategiyası və proqramının hazırlanması və icrasına dəstək göstərəcəkdir."

Lakin layihəni "udan" (həm qalib həm də vəsaitləri mənimsəmək baxımından) ŞQİİ onu tam başqa istiqamətdə yönəltmək cəhdində bulunub.

## Onları mərhələli qaydada təqdim edirik:

1. Bu layihənin büdcəsi hər tərəfin bərabər töhfəsi olmaqla 14.4 milyon ABŞ dolları məbləğində müəyyən edilib. Halbuki, razılaşmaya əsasən, hər dörd layihəni icra edəcək təşkilatların seçimini tərəflər birgə aparmalı idi. Yəni meydana çıxan fakt budur - USAİD birtərəfli olaraq Azərbaycan hökumətinin iştirakı olmadan SEDA layihəsinin icraçısı kimi məhz Sorosun (!) təsis etdiyi "Şərq Qərb İdarəetmə İnstitutunu" müəyyən edir.

2. ŞQİİ tərəfindən layihənin bu qurumun Nyu-Yorkdakı ofisindən əlaqələndirici kimi qalmaqallı sorosçu Delina Fico təyin edilir. Bu qadın cisminə geyinmiş Sorosçu iblis haqqında biz artıq ətraflı yazmışdıq (https://sia.az/az/news/politics/856643.html ). Delina Fico layihənin bütün büdcəsinə nəzarət edir və məsafədən layihənin icrasına mütəmadi müdaxilə edir.

3. USAİD tərəfindən layihənin Sorosla bağlı təşkilata verilməsi Azərbaycan hökumətini hiddətləndirir və həm layihəni, həm də layihənin icraçısı olan ŞQİİ-ni qeydiyyata almaqdan imtina edir. Təşkilat isə bu qərarı saymayaraq bu günə qədər ədliyyə nazirliyində qeydiyyatdan keçmədən fəaliyyət göstərir.

4. İkitərəfli memorandumda qeyd olunan əsas məqsədlərə rəğmən, ŞQİİ layihənin məqsədlərin tam dəyişərək layihəni 3 komponentə bölərək, regional inkişaf məqsədlərindən uzaq fəaliyyətlər həyata keçirməyə cəhdlər edir.

5. 2016-cı ildə İkitərəfli memorandumun müddəti bitir, lakin layihəni ŞQİİ-ni Azərbaycanda qoruyub saxlamaqdan ötrü , USAİD layihəyə əlavə olaraq 8 milyon ABŞ dolları ayırır, və beləliklə, Sorosun təşkilatına Azərbaycan hökumətində töhfəsi daxil olmaqla ümumilikdə təxminən 22 milyon ABŞ dolları məbləğində vəsait faktiki olaraq hədiyyə edilir.

6. Xüsusi qeyd etmək lazımdır ki, USAİD-in layihələri üzrə icraçı təşkilatlar müəyyən faizlə gəlir əldə edirlər. Həmin vəsaitin məbləği "Qeyri-müstəqim Xərclərin dərəcəsi üzrə Saziş" (NEGOTIATED INDIRECT COST RATE AGREEMENT(NICRA)) adlı sənədlə müəyyən edilir. Maraqlısı isə budur ki, ŞQİİ-nin belə saziş üzrə gəlir dərəcəsi ağlasığmaz - 29% səviyyəsində müəyyən edilmişdir. Halbuki ümumi qayda olaraq beynəlxalq təcrübədə analoji QHT-lər və layihələr üçün bu dərəcələr 15% civarında olur. Bu, o deməkdir ki, ŞQİİ və yaxud dolayisi ilə Soros, bu layihədən sırf gəlir kimi 6 milyon ABŞ dollarından çox məbləğdə gəlir əldə etmişdir. Bundan əlavə Delina Fico başda olmaqla ŞQİİ-nin baş ofisinin bir neçə əməkdaşı baş ofis tərəfindən yuxarıdakı məbləği mənimsədildiyi nə baxmayaraq, yenə də yüksək məvaciblərlə layihənin büdcəsinə daxil edilir.

7. Layihə çərçivəsində faktiki olaraq heç bir əməli fəaliyyət göstərmədən, Delina Fico, layihə üçün yalnız başağrısı və problemlər yaratmaqla məşğul olaraq, hər ay təxminən 12 min ABŞ (!) dolları məbləğində əmək-haqqı alır (?!) Kobud desək, evində otura-otura. Layihənin davam etdiyi 10 il ərzində isə bu təxminən 1,5 milyon ABŞ dolları edir (!).

8. Bundan əlavə, ŞQİİ-u Azərbaycanın dövlət büdcəsindən 7 milyon dollar ayrılan proqramda ilkin sazişdə nəzərdə tutulduğu 162 infrastruktur layihə əvəzinə cəmi 114 layihə icra etmişdir. Nəzərə alsaq ki, hər layihənin orta hesabla dəyəri 20 min ABŞ dolları-rıdır, burda söhbət əlavə olaraq təxminən 960,000 ABŞ doları məbləğində vəsaitin "itməsindən" gedir.

9. Üstəlik, SEDA çərçivəsində 91 kəndə "vətəndaş iştirakçılığı" üzrə layihələrə hər biri ən azı 5,000 ABŞ dolları qrantlar verməli idi ki, ŞQİİ cəmi 6 qrant vermişdi, bu da yenə də əlavə olaraq 85 layihə üzrə 425,000 ABŞ dolları təşkil edir.

10. Amma ŞQİİ layihə çərçivəsində törətdiyi ən böyük fırıldaq bütün digər fırıldaqları kölgədə qoyur. Fırıldaq nədən ibarət idi? Layihənin əsas fəaliyyəti istiqaməti üzrə komponenti üzrə ŞQİİ Azərbaycanın ehtiyacı olan kənd yerlərində kiçik miqyaslı infrastruktur layihələr həyata keçirirdi. Və ŞQİİ belə layihələrin icrası üçün müraciət edən kəndlərdən icra olunacaq layihənin ümumi məbləğinin 25% töhfə kimi ödəməklərini tələb edirdi, şərt qoyurdu. Araşdırmamız nəticəsində məlum olub ki, məhz kasıb kəndlilərin topladığı töhfələr hesabına, ŞQİİ layihə üzrə öz öhdəliklərini yerinə yetirirmiş. Belə ki USAİD ilə ŞQİİ arasında layihə üzrə imzalanmış müqaviləyə əsasən icraçı (yəni ŞQİİ) proqramın icra olunmasına 1,459,326 ABŞ dolları məbləğindən az olmayan həcmdə vəsaiti proqramın icrasına töhfə verməyi öz üzərinə götürür.

10. Hətta yeni koronavirus pandemiyası belə, ŞQİİ və Delina Ficonun maddiyyat qazanmaları yönündəki qanunsusluq azğınlıqlarına son qoymadı. Onlar bu vəziyyətdən də öz qurama "kreativlikləri" sayəsində faydalanmağa macal tapdılar və şübhəsiz ki, bütün tədbirlər həmişəki kimi sırf gəlir əldə etməyə yönəlmişdir. Pandemiyanı bəhanə gətirərək ŞQİİ birinci növbədə bu il ərzində icra etməli layihələrin sayını 36-dan 30-a endirərək ən azı 120,000 ABŞ dolları məbləğində vəsaitə "qənaət" edib, kobud ifadə etsək, həmin məbləği də həzm-rabeəsindən keçirib.

11. Beləliklə, ŞQİİ-ni bütün fırıldaqları nəticəsində bu təşkilat 22 milyonluq layihənin ümumilikdə təxminən 10,5 milyon ABŞ dollarında vəsaiti mənimsəyib. Nəzərə alsaq ki, layihə müddətində manatın kursu iki dəfə dəyişib, o halda büdcəsi dollarla olan bu təşkilatın real qazanclarının miqyası haqqında gözəl təsəvvür yaratmaq olar. Ən əsası, mənimsəmələr əsasən, bilavasitə 2011-2016-cı illərdə baş vermişdir, yəni Azərbaycan hökumətinin vəsaiti xərclənən dövrdə.

ANALİTİK ARAŞDIRMA

Ardı Səh. 13

Əvvəli Səh. 12

# Bayden “genosid” deyəcək, sorosçu təşkilatlar ölkəmizdə “işləməyə” davam edəcək

12. Delina Fico layihənin yalnız birinci komponenti, yəni Azərbaycan hökumətini qane edən fəaliyyətin qalmasından çox narazı idi və 2018-ci ildə layihənin növbəti dəfə uzadılması məsələsi gündəmə gələndə həm USAİD-in həmdə hökumətin qarşısında müxtəlif şərtlər qoymağa çalışırdı. Onun əsas tələbi mütləq halda hər hansı bir “Soros sayağı” “ictimai” fəaliyyətlərin layihəyə daxil edilməsi idi. Delina Fico tərəfdaşları hətta əks təqdirdə layihənin bağlanması ilə hədələyirdi. Lakin blef alınmadı və onun şərtləri qəbul edilmədi.

13. ŞQİİ mütəmadi olaraq külli vəsaitlər müqabilində ölkəyə xarici vətəndaşları ekspert qismində dəvət edir və onlar Azərbaycanda turist vizaları əsasında daxil olurlar, fəaliyyətlərini də həmin statusda aparırlar və faktiki olaraq əmək qanunvericiliyini pozurlar. Bundan əlavə, həmin şəxslər burada faktiki əmək fəaliyyətləri ilə məşğul olmalarını rəsmi bəyan etməməklə əmək fəaliyyəti üçün icazələr üzrə nəzərdə tutulmuş rüsumları ödəmir, bu da büdcənin “itirilmiş gəlirlərinə” aid edilə bilər.

Həmin şəxslər 3 aydan bir ölkəni ya Rusiya, ya da Gürcüstan istiqamətindən tərk edib yenidən ölkəyə daxil olurlar. Şübhəsiz ki, həm bu ekspertlərə həm də onların viza macəralarına xərclənən vəsaitləri daha da səmərəli istifadə etmək olardı. Amma görünür ki, həmin şəxslərin ölkəyə gətirilməsində gerçək məqsədlər iddia olunanlardan fərqlidir, yəni daha dəqiq desək, qaranlıqdır. Belə ki, hazırda ölkəmizdə bütün sahələr üzrə son dərəcə savadlı kadrlar mövcuddur və xaricdən bu sayda bahalı “ekspert” gətirməyə lüzum yoxdur. Hazırda da ölkədə bu “əsaslarla” fəaliyyət göstərən ekspertlər vardır.

14. ŞQİİ-nin digər qanunsuz fəaliyyəti özbaşına olaraq tenderlər keçirilməsidir. Maraqlıdır, qeydiyyatda olmayan bu qurum hansı əsaslarla ölkədə tenderlər keçirir?! Əslində, tender komissiyasının sədrinin artıq yaxşı tanıdığımız Delina Ficonun olması artıq özü-özüyündə bu sualın cavabını bütün çılpaqlığı ilə göstərir!

Mühüm qeyd: Azərbaycan Respublikasının 11 fevral 1997-ci il tarixli 247-IQ saylı Tenderlər Haqqında Qanunun 1-ci maddəsinə əsasən : “tender keçirən” - Azərbaycan Respublikası adından və ya öz adından tender hazırlayan, elan edən, keçirən və nəticəsi üzrə müəyyən öhdəlikləri yerinə yetirən, yaxud bunları (tenderin nəticəsi üzrə öhdəliklər götürərək icra etməkdən başqa) müqavilə əsasında hər hansı bir icraçıya həvalə edən hüquqi şəxsdir.”

Yəni ŞQİİ ölkədə hüquqi şəxs kimi qeydiyyatdan keçmədən, ümumiyyətlə, hər hansı bir tender keçirə bilməz. Tenderin keçirilməsi prosedurları isə ümumiyyətlə qanunun bir çox maddəsini pozur.

15. Tenderə çıxarılan infrastruktur layihələri isə ŞQİİ mühəndislik fəaliyyətinə rəsmi icazəsi-lisenziyası olmayan mühəndisləri tərəfindən hazırlanır ki, bu da bir başqa qanun pozuntusudur. Üstəlik, qeyri-peşəkar hazırlanmış mürəkkəb layihələrin icrası təhlükəsizlik baxımından da böyük suallar yaradır. Və layihənin icrası müddətində bununla bağlı bir sıra ciddi problemlər yaranmış və hətta USAİD bir müddət ŞQİİ layihələrin icrasını dayandırmağı tapşırmışdır.

16. Layihə hazırda kifayət qədər həssas regionlarda, yəni Rusiya və İranla sərhədlərdə fəaliyyət göstərir. Və əldə etdiyimiz məlumatlara görə bu regionlarda ŞQİİ fəaliyyətlərinə başlamaq üçün USAİD-dən əlavə vəsait almaq üçün Delina Fico eyniliklə Avropa İttifaqı ilə yönəldilməli olduğu siyasətdən və təhdiddən istifadə etmişdir. Bu haqda biz əvvəllər yazmışdıq. Delina Fico avropalıları belə qorxutmağı təklif etmişdi: “Siz bilirsiz ki, biz insanlarla onlar başa düşən dildə danışmalıyıq. Və Qərbi Balkan ölkələrinə gəldikdə əksər xarici diplomatların başa düşdüyü dil çox sadədir: Rusiya təsiri, potensial etnik-arası münaqişələr, zorakı ekstremizm və artan miqrasiya səviyyəsi...”

Əldə etdiyimiz məlumatlara görə, SEDA layihəsinin 2016-cı ildə sonra məhz İran və Rusiya ilə sərhəd rayonlarında fəaliyyətə başlaması üçün Delina Fico tam eyni təhdid və arqumentlərdən istifadə etmişdi: Rusiya və İran tərəfindən təsirin qarşısının alınması, zorakı ekstremizm məsələləri, və həmin regiondan miqrasiya axınlarının qarşısının alınması. Xatırladaq ki, hazırda SEDA Şimal və Şimal Qərbdə Balakən, Qax, Zaqatala, Quba, Qusar, Xaçmaz, rayonlarda və cənubda Lerik, Yardımlı və Astarada fəaliyyət göstərir. Görəsən Sorosla bağlı təşkilatların sərhədyanı regionallarda fəaliyyət göstərməsi nə dərəcədə məqsədəuyğundur?

17. İndi isə Deina Fico müxtəlif variantlara əl atır ki, USAİD-in yeni layihələrinə “girişə” bilsin, azad olunmuş ərazilərə “daxil” olsun. O təbliğat üçün sərəncamına keçən layihənin Facebook səhifəsindən də fəal istifadə edir və manipulyasiya edir. Əldə etdiyimiz məlumatlara görə Delina Fico yeni layihələrə qoşulmaq üçün hətta artıq USAİD-in nümayəndələri ilə ilkin razılıq da əldə edib ki, yeni layihəyə özü və özünün formalaşdırdığı komanda ilə “müdaxilə” etsin və Sorosun tapşırıqlarını yerinə yetirsin. Bu məqsədlə yeni komandaya əvvəllər Sorosla bağlı layihələrdə və təşkilatlarda işləmiş şəxsləri cəlb etmək niyyətindədir. Amma qondarma genosidin tanınması və qatı Antiturk Samanta Pouerin USAİD-in rəhbəri təyin olunması USAİD-in özünün ölkədən çıxarılması ilə nəticələnə bilər. Odur ki, Ficonun planları baş tutmayacaq!

18. ŞQİİ-u hökumət tərəfindən qeydiyyata alınmamasının yarandığı vəziyyətdən də məharətlə yayınır və hətta sui-istifadə edir və bəhrələnir. Belə ki, ŞQİİ bütün fəaliyyətlərini birbaşa özünün Nyu-York ofisindən həyata keçirir, bütün büdcə resurslarını oradan idarə edir, fəaliyyəti ilə bağlı bütün müqavilələr orda imzalanır və bütün müqavilələrdə “mübahisələrin” məhz Nyu-York məhkəmələrndə baxılması nəzərdə tutulur ki, bu da bütün yerli tərəfdaşları faktiki olaraq bu təşkilatdan tam asılı vəziyyətə salır. Yəni icraçı təşkilatlardan biri vəsaitin köçürülmədiyindən narazılığını bildirdikdə, ona deyilmişdir ki, Nyu-York məhkəməsinə müraciət etsin. Amma bir sözlə desək, ŞQİİ qeydiyyata alınmadığına görə, Azərbaycan vətəndaşlarından bu formada necə deyərlər, “acığını” çıxır, özü də buna görə heç bir məsuliyyət daşımır! Üstəlik, layihənin bilavasitə ABŞ-dan idarə olunması vergidən yayınmalar üçün şərait yaradır və bunun üçün nəzərdə tutulan vəsaitlərin mənimsənilməsinə şərait yaradır. Məsələn ŞQİİ bütün işçiləri fərdi sahibkar kimi işə götürür və nəticədə sosial ayırmalardan boyun qaçırır. Halbuki, ŞQİİ rahatlıqla yerli partnyor təşkilat taparaq onun vasitəsi ilə bütün fəaliyyətlərini qanun çərçivəsində idarə edə bilərdi. Aydın məsələdir, bu kimi “fərqli” niyyətləri olan ŞQİİ üçün məqbul variant sayıla bilməz.

19. Bundan əlavə Delina Fico əvvəllər SEDA-da ona yaxın olmuş və nəzarətində fəaliyyət göstərmiş şəxsləri digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarında həm də digər şirkətlərdə işə düzəlməkdə bulunur, ünsiyyətdə olduğu bəzi dövlət məmurlarını müxtəlif mükafatlar və ya digər növ ödənişlər təklif etməklə özünə dəstək yaratmaqla məşğuldur, bu da Sorosun “şəbəkələnmə” taktikasının əsas elementidir.

**Beləliklə, yuxarıda ŞQİİ törətdiyi pozuntuların bir qismini qeyd etdik. İndi isə ŞQİİ fəaliyyətini əhatə edən əsas müəmmalar haqqında bir neçə faktı diqqətinizə çatdırmaq istərdik:**

*** ŞQİİ Azərbaycanda 10 ilə (!) yaxındır ki, tam qanunsuz, yəni Ədliyyə Nazirliyində qeydiyyatdan keçmədən fəaliyyət göstərir. Sonuncu dəfə qeydiyyatdan imtina haqqında qərar Ədliyyə Nazirliyi tərəfindən 5 oktyabr 2020-ci il tarixində göndərilmişdir. Heç SEDA layihəsi üzrə qrant belə qeydiyyatdan keçməyib.

*** ŞQİİ-nin fəaliyyətini əhatə edən ikitərəfli memorandumun müddəti 2016-ci ildə bitdiyinə baxmayaraq, naməlum səbəblərdən ŞQİİ hələ də (?) ölkədədir.

*** Ölkəmizdə fəaliyyət göstərən QHT-lərin nəzarətə götürüldüyü 2014-cü ildə ŞQİİ-in icra etdiyi SEDA layihəsi üzrə əsas nəzarətçi olan “İqtisadiyyat və Sənaye Nazirliyi (nazirliyin 2014-cü il üçün hesabatından sitat) sözügedən layihələrin davam etdirilməsinə birtərəfli qaydada xitam verib. Həmin sitatı xatırladırıq: “...Sosial-İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) layihəsinin həyata keçirilməsinə xitam verilməsi barədə Azərbaycan Respublikası Prezident Administrasiyasına məktub ünvanlanmışdır...”. Lakin bu müraciət cavabsız qalmışdır...

*** Ədliyyə Nazirliyinin ŞQİİ qeydiyyata alınması ilə bağlı müraciətinə məhz İqtisadiyyat Nazirliyi tərəfindən mənfi rəy daxil olduğu üçün ŞQİİ hazırda da ölkədə qeydiyyata alınmadan yeni faktiki qanunsuz fəaliyyət göstərir. Lakin, ŞQİİ qanunsuz fəaliyyətlərini hamısında və bütün elan və digər sənədlərində xüsusi vurğulayır ki, guya layihə İqtisadiyyat Nazirliyi ilə birlikdə həyata keçirilir, halbuki, bu layihə üzrə və ümumiyyətlə, ŞQİİ və İqtisadiyyat nazirliyi arasında heç bir hüquqi və yaxud digər anlaşma heç vaxt olmayıb və ola da bilməz. Layihəyə dair istənilən fəaliyyətlərlə bağlı yazışmaları İqtisadiyyat Nazirliyi birbaşa USAİD-lə aparır. Amma indi aydındır ki, son hadisələr nəticəsində USAİD ölkədən çıxarılacaqdır və bu kimi yazışmalara onsuz da son qoyulacaqdır.

***

Qeydiyyatdan imtina olunmasına baxmayaraq, Delina Fico öz fəaliyyətlərini davam edir və aidiyyəti qurumlarla yazışmalar aparır və artıq tam özbaşına Corc Sorosun tapşırıqlarını gerçəkləşdirməyə çalışır. Belə fəaliyyətin arxasında dayanan məqsədlərin, məramların daha təfsilatla araşdırılmasına qədər isə təkcə ortaya qoyulan faktlar müqabilində nəticələr çıxarmaq kifayət edir.

Yuxarıdakı müəmmaların yaratdığı sual isə budur ki, ŞQİİ hansı əsaslarla hələ də ölkəmizdə fəaliyyətini davam edir? Kim onlara ixtiyar verib ki, İqtisadiyyat Nazirliyinin rəsmi adından və atributlarından öz fəaliyyətində qanunsuz və icazəsiz istifadə etsin? Ədliyyə Nazirliyinin ŞQİİ həm də onun icra etdiyi layihənin qeydiyyatdan keçməməsini araşdırmalıdır. Ümumiyyətlə, ŞQİİ-nin Azərbaycandakı qeyri-qanuni fəaliyyətində hansı dairələr maraqlıdır? Qeyd edək ki, SİA-da bununla da bağlı müəyyən sensasiyalı məlumatlar yayılaraq ictimailəşdirilmişdi və biz hazırda o faktların daha dərindən dəqiqləşdirilməsi prosesindəyik və ümid edirik ki, qısa bir zamanda ictimaiyyəti növbəti məlumatlarla təmin edəcəyik. Lakin hər şeyə rəğmən, bir mühüm məqam artıq aydındır ki, ŞQİİ ölkəmizdəki fəaliyyətini dərhal dayandırılmalı və bu təşkilat, eləcə də onun buradakı emissarları, missionerləri, ümumiyyətlə isə, havadarları ölkədən qovulmalıdırlar.

***Rövşən RƏSULOV***

ANALİTİK ARAŞDIRMA

## “Fransa artıq Minsk qrupunun həmsədri ola bilməz”

**“Fransa deputatının Azərbaycana qarşı yeni qətnamələr layihəsini parlamentə təqdim etməsi onun erməni diasporu ilə sıx bağlılığını göstərir”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Asim Mollazadə deyib.**



Deputatın sözlərinə görə, bu birinci səbəb deyil ki, Fransa parlamentində və ya Fransa senatında Azərbaycana qarşı erməni diasporunun təhriki ilə bağlı müvafiq sənədlər qəbul edilir: “Bu onu göstərir ki, Fransa artıq Minsk qrupunun həmsədri ola bilməz. Çünki Fransa tərəfdir. Çox vaxt münaqişənin həll olunmamasında istisna deyil ki, Fransanın neqativ rolu vardı. Fransa açıq göstərdi ki, o Ermənistanın tərəfindədir. Düşünürəm ki, bu hamı tərəfindən, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar tərəfindən nəzərə alınmalıdır.

Asim Mollazadə həmçinin qeyd edib ki, Azərbaycanla Ermənistan arasındakı münaqişənin həll olunmasından sonrakı sülh və ya quruculuq prosesində Fransanın iştirakı qəbul edilməzdir. Təəssüflə bir şeyi də qeyd etmək istərdim ki, Fransada senafobiya, rasizm, anti-islamizm, anti-semitizm artıb. Bu Avropa üçün çox ciddi təhlükə kəsb edir. Bu yaxınlarda Fransada türk ailəsinə hücumlar olmuşdur, məscidlər yandırılmışdır. Bununla yanaşı 60 min yəhudi Fransanı tərk edib. Özü-özlüyündə Fransada çox ciddi qarşıdurmalar gedir və biz bundan çox narahatıq. Erməni icması, erməni terroristlərə açıq sərbəst şərait yaratmaq bu prosesləri daha da dərinləşdirir. Onun üçün biz Fransann mövqeyindən çox narahatıq və mənə elə gəlir ki, bu yanaşma ilə, bu siyasi addımlarla Fransa həm Azərbaycanla, həm də Türkiyə ilə öz münasibətlərinə çox ciddi zərbə vurur. Mən əminəm ki, uduzan tərəf Fransa olacaqdır”.

***Arzu Elsevərqızı***

# "Kor kora kor deməsə, bağrı çatlar"

**"...Diqqətəlayiq haldır ki, bu gün Ermənistanda "köhnəni", yəni konkret olaraq, Serj Sarkisyanı tənqid etdiyinə görə özünü təsdiqləmə kompleksindən əziyyət çəkən bir çox qüvvələr var. Əslində, məni bu qüvvələrin taleyi az maraqlandırır, məni daha çox maraqlandıran Ermənistanın taleyidir". Nə gözəl, nə gözəl...**

Bilirsiniz, bu sözləri kim deyir, "sabiq" qalmaqdan bezdiyini etiraf etmək məcburiyyətində qalan, Serj Sarkisyanın "önəmli təbliğatçısı" Eduard Şarmazanov. Bu gün Serj başda olmaqla, hədəflərinin Nikol və nikolizmə qarşı "məhsuldar mübarizə" olduğunu bildirən sabiq "təbliğatçı", nədənsə, Serjlə bağlı bəzi reallıqları dilə gətirməkdən çəkinir. Məsələn, Şarmazanov niyə, 2016-cı il Aprel müharibəsindən sonra "başbiləni" Sarkisyanın ermənilərə sırıdığı yalanların tükəndiyini demir. Niyə, Şarmazanov Sarkisyanın həmin döyüşlərdə böyük itkilər verən ermənilərin müharibənin dayandırılacağı təqdirdə hər cür şərtlərə razılıq verəcəyini öz xalqından gizlədir.

Məgər, Sarkisyan heç bir direniş göstərmədən hakimiyyətini elə-belə Nikol Paşinyana verərdimi? Təbii ki, yox! Çünki o, bir məsələdə deyil-



diyi kimi, "tülküdən də üç gün qabaq doğulan" Sarkisyan Ermənistan üçün gözlənilən təhlükəni yaxşı görürdü. Buna görə də, hakimiyyətini kiməsə "ötürərək" özünü gözlənilən təhlükədən sığortalamaq həmən ərəfədə Serjə vacib idi.

Amma indi Şarmazanovun vaxtilə Ermənistan Respublika Partiyasında onunla təmsil olunan tör-töküntülərlə yanaşı, digər erməniləri də yenidən Serj Sarkisyan tərəfdarlarına səs verməyə çağırması gülünc görünür. Qeyd edək ki, bir müddət bundan əvvəl elə Şarmazanovun özünün Ermənistanda keçiriləcək erkən seçkilərdə onun partiyasının iştirak edib-etməməyəcəyi barədə yekun qərar vermədikləri barədə dedikləri heç bir həqiqətə sığmır.

...Yeri gəlmişkən, bildirək ki, bu günlərdə 2018-ci ilin aprelində Serj Sarkisyanın "Nikol Paşinyan haqlı idi, mən səhv etdim" fikirlərini xatırladanlara sabiq üçüncü prezident özü başda olmaqla partiyadaşlarının "canavar", rəqiblərinin isə, çaqqal olduğunu bildirib. Əslində, burada qeyri-adi heç nə yoxdur, çünki "kor kora kor deməsə, bağrı çatlar".

*Ağasəf Babayev*

# Araik Arutyunyan: "Artıq oktyabrın əvvəlində müharibənin necə bitəcəyi bəlli idi"



**Qondarma qurumun başçısı Araik Arutyunyan bildirib ki, müharibənin oktyabrın əvvəllərində bitirmək qərarı bir çox siyasi qüvvələr tərəfindən xəyanət hesab olunurdu. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Arutyunyan bunu qondarma qurumun əldəqayırma Şəhər İnkişafı Nazirliyində keçirilən iclasında söyləyib.**

Qondarma respublika prezidenti Araik Arutyunyanın sözlərinə görə, müharibənin nəticələrinin necə olacağı onun üçün 2020-ci ilin oktyabr ayının əvvəlində artıq bəlli olub. O, qeyd edib ki, ancaq Ermənistandakı siyasi qüvvələr hərbi əməliyyatların erkən dayandırılması ilə bağlı bir fikir birliyinə gələ bilməyiblər. Arutyunyan əlavə edib ki, həmin o günlərdə Ermənistandakı bir çox siyasi qüvvələr müharibənin dayandırılmasını xəyanət kimi qəbul ediblər. Araik Arutyunyan ümumiyyətlə, məğlubiyyətin əsas səbəblərindən bəhs edərək vurğulayıb ki, 1994-cü il may atəşkəsindən sonra Ermənistanın hərbi-siyasi rəhbərliyi dünya təcrübəsindən lazımi dərsləri almayıb.

Xatırladaq ki, Ermənistan tərəfinin təxribatları nəticəsində yenidən başlayan, 44 gün davam edən müharibə işğalçı ölkə Ermənistanın rüsvayçı məğlubiyyəti ilə nəticələnib və Azərbaycan, Rusiya və Ermənistanın rəhbərləri Qarabağda atəşkəsə dair birgə bəyanat qəbul ediblər. Bəyanata görə, Dağlıq Qarabağda tam bir atəşkəs 10 noyabr tarixində qüvvəyə minib. Ermənistan tərəfi bəyanatın şərtlərinə əsasən bir sıra əraziləri döyüş əməliyyatları, hərbi əməliyyatlar olmadan əzəli sahibinə, Azərbaycana qaytarıb.

Atəşkəs və döyüş əməliyyatlarına nəzarət etmək üçün Rusiya Federasiyasının sülhməramlı kontingenti Dağlıq Qarabağ münaqişəsi zonasına 1960 hərbi qulluqçu, 90 zirehli personal daşıyıcısı, 380 ədəd avtomobil və xüsusi texnika yerləşdirib.

*İnam Hacıyev*

# Elxan Şahinoğlu: Ermənistanın çıxış yolu Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqdır

**"Azərbaycan Qarabağın bərpası və dirçəldilməsi kimi irimiqyaslı və uzunmüddətli tarixi prosesi davam etdirir. Bərpa olunacaq yaşayış sahələrində müasir iqtisadi və texnoloji innovasiyalar tətbiq edilir. Hazırda düşməndən təmizlənən ərazilərdə bərpa-quruculuq tədbirləri həyata keçirilir, infrastruktur layihələri reallaşdırılır. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları tərtib olunur. İlk növbədə, Ağdam şəhərinin və bütövlükdə bu rayonun baş planı hazırlanır. Bütün bunlardan sonra isə sosial obyektlərin, inzibati binaların inşası, nəhayət, məskunlaşmaya başlanılması nəzərdə tutulur". Bu fikirləri "İki sahil"ə açıqlamasında Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib.**

E. Şahinoğlu bildirib ki, Azərbaycan Qarabağda cənnət yaratdığı bir vaxtda Ermənistan öz faciəsini daha da dərinləşdirir: "Ermənistanda hazırda seçki ab-havası hökm sürür, Paşinyanın öz tərəfdarları belə, revanşist iddialarla xal qazanmağa çalışır. Paşinyan seçkilərlə bağlı vəzifəsindən istefa versə də, ölkədə gərginlik zəifləmir, əksinə, qarşıdurma daha da dərinləşir. Ermənistanın baş naziri Zəngəzur vilayətinə səfərindən sonra respublikada siyasi münaqişə yenidən özünün pik həddinə çatıb. Səbəb isə hüquq-mühafizə orqanları tərəfindən aparılan son həbslərdir. Ölkənin İstintaq Komitəsi artıq Zəngəzur vilayətindən olan 19 müxalifətçini Nikol Paşinyanın regiona səfəri zamanı xuliqanlıq və ictimai asayişi pozan kütləvi tədbirlər təşkil etməkdə günahlandıraraq məsuliyyətə cəlb edib".

Politoloq bildirib ki, Ermənistanın böhrandan çıxış yolu kimi qonşu ölkələrlə münasibətləri normallaşdırmalıdır. Əks halda, düşmən ölkədə böhran daha da dərinləşəcək: "Ermənistanın Türkiyə və Azərbaycanla əməkdaşlığının yaranacağı halda problemin həllinin mümkünlüyü daha real görünür. Əks halda, vəziyyət daha da kəskinləşəcək. Hazırda bu ölkənin dövlət borcu artaraq təhlükəli həddə çatıb. Bu gün Ermənistanın dövlət borcu istehsal olunan ümumi daxili məhsulun (ÜDM) əvvəlcədən müəyyən edilən 60 faiz həddini keçərək 63,5 faizə çatıb.

Müharibə nəticəsində Ermənistanda enerji, kənd təsərrüfatı və maliyyə sahələrində də ciddi problemlər yaranıb. Büdcə kəsrinin ümumi daxili məhsulda payı isə 7,6 faizə çatıb".

E. Şahinoğlu vurğulayıb ki, Ermənistan həqiqətən xilas olmaq istəyirsə, Azərbaycanın bölgədə sülh və əməkdaşlığın bərpa olunması ilə bağlı təşəbbüslərinə qoşulmalıdır.

*Nigar Orucova*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Moskva Bakının ona verdiyi son şansını itirməməlidir

**Qarabağda, Rusiya sülhməramlılarının nəzarət etdikləri ərazilərdə cərəyan edən olaylar Moskvanın Bakı qarşısındakı son reabilitasiya şanslarını itirmək üzrə olduğunu göstərir. Artıq Bakıda, Rusiya səfirliyinin qarşısında sayca ikinci etiraz piketi baş tutdu ki, həmin piketdə səslərini ucaldan insanların haqlı narazılıqlarını anlamaq elə də çətinlik yaratmır. Bəli, azərbaycanlılar əsaslı olaraq Rusiyaya qarşı etimadsız yanaşdıqlarını və şübhəli olduqlarını nümayiş etdirirlər. Məgər tarixlərdən gələn hadisələr də belə deməyə əsas vermirmi? Elə isə gəlin qısa şəkildə həmin tarixin, Rusiya və Azərbaycan münasibətlərinin səhifələrini bir daha səhifələyək:**

*** Rusiya erməniləri azərbaycanlıların torpaqlarına köçürdü və azərbaycanlıları öz yurdlarından çıxardı.

*** Rusiya erməniləri silahlandırır və hərbi biliyə yiyələndirirdi və sonradan həmin erməni silahlıları azərbaycanlı silahsızlara qarşı qətliamlar, işğallar törədirdi.

*** Rusiya Azərbaycan Demokratik Cümhuriyyətini işğal etdi və Azərbaycan torpaqlarını ermənilərə DQMV (Dağlıq Qarabağ Muxtar Vilayəti) adı altına peşkəş etdi, üstəlik, Zəngəzur da bilavasitə yeni yaradılan Ermənistanın ərazisinə qatıldı.

*** Rusiya növbəti onilliklər boyunca Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə bu və ya digər şəkildə yardım etdi.

*** Rusiya Ermənistanı pulsuz qaydada silahlandırmaqla bu prosesi Azərbaycanın ərazisində separatçı rejimlə də apardı. Halbuki, Rusiya 30 il (!!!) Minsk qrupunun həmsədr ölkəsi olaraq guya nəyisə "həll" etməyə "cəhdlər" göstərirmiş...

Və bu siyahını sonsuza qədər uzatmaq olar, lakin məğz məlumdur. Onu da qeyd edim ki, Rusiya deyərkən, burada üç siyasi quruluş nəzərdə tutulub - Rusiya imperiyası, Sovet Rusiyası və müasir Rusiya.

Daha bir imkan...

44 günlük savaş başa çatdı və Azərbaycan möhtəşəm qələbə qazandı. Üstəlik, Ermənistanın dizə gəlməsinin ardınca Rusiya sülhməramlı kontingentini öz ərazilərinə dəvət etdi - gözlənilən erməni məkrlərindən, terror təhlükəsindən qorumaq, regionun aparıcı ölkəsi olduğuna görə, məhz regionun təhlükəsizliyində rol alması naminə. Faktiki olaraq Azərbaycan bu vasitə ilə Rusiyaya sonuncu şansı verdi ki, daha əvvəllər buraxdığı səhvlərini silsin, bizimlə münasibətdə yürütdüyü siyasətinə yenidən baxsın və doğru nəticələrə gəlsin.

Ancaq sülhməramlıların atdığı addımları göstərir ki, Rusiya yenidən ona verilmiş reabilitasiya şanslarını itirməkdədir. Bəs Rusiya sülhməramlıları nəyi doğru etmirlər? Bunu da izah etmək çətin deyil.

*** Araik Arutyunyan və digər quldur rejim təmsilçiləri Azərbaycanda axtarışda olmalarına rəğmən, rus sülhməramlıları tərəfindən nəinki saxlanılaraq bizə təhvil verilmirlər, onlar rahat şəkildə Moskvaya müəmmalı məsləhətləşmələrə çox rahat şəkildə təyyarə uçuşları gerçəkləşdirirlər.

*** Rusiya TV-ləri, rəsmi qurumları, eləcə də müdafiə nazirliyi Azərbaycan ərazilərindəki kənd, şəhər, rayon, qəsəbə toponimlərini ermənilərin adlandırdıqları tərzdə səsləndirirlər. Ən alçaldıcı məsələ isə Xankəndinin əli azərbaycanlıların qanına bulaşmış, xalqımıza qarşı soyqırımı törətmiş gorbagor Şaumyanın adını daşıyan "stepanakert" kimi səsləndirmələridir. Yəni bu gün tarixi və rəsmi Xankəndinin "stepanakert" adlandırılması ciddi, yolverilməz təxribatdır!

*** Nəticədə, erməni separatçılarının bir topasının qurduqları saxta rejim rus SM-nın məsuliyyət daşıdıqları ərazilərdə nəinki ləğv edilmir, eləcə də həmin rejimin təmsilçiləri həbs edilərək Azərbaycana təhvil verilmir, üstəlik, onlar zaman-zaman axmaq bəyanatlar səsləndirərək, Bakının hiddətinə səbəb olurlar.

*** Ən əsası! SM-ın məsuliyyət daşıdıqları bölgələrdə Rusiya bayraqları ilə yanaşı Ermənistanın, eləcə də saxta rejimin üzərində kvadratcıqları olan əski parçaları da dalğalanır.

*** Bu ərazilərdə hələ də erməni silahlıları qalır, üstəlik, onlar rahat şəkildə hərəkət edirlər.

Bu siyahını da uzatmaq olar. Lakin məram bəllidir. Rusiya SM nəinki heç nə etmirlər ki, azərbaycanlıların qarşısında az da olsa inam yaratsınlar, əksinə, tamamilə başqa tərəfə doğru addımlar atırlar. Əlbəttə ki, belə olan halda Azərbaycan xalqı Rusiyanın əleyhinə köklənir və haqlı olaraq da köklənməkdədir.

Rusiya isə artıq anlamalıdır ki, Qarabağ Azərbaycan torpağıdır və ona Ermənistana xidmət etmək heç də lazım deyil. Ermənistan öz gorunda dəfələrlə fırlana bilər, fəqət Ermənistanın utopik arzuları və iddiaları heç vaxt Azərbaycanın ərazilərində gerçəkləşə bilməz və buna imkan da verilməyəcək. Azərbaycan sıra başqalarından fərqli olaraq ona qarşı hörmət göstərənlərə tarixlər boyu qarşılıqlı və daha üstün münasibət göstərib. Bu baxımdan, Rusiya bir daha düşünməlidir. Düşünməlidir ki, öz sülhməramlıları Azərbaycan torpaqlarındadırlar və bu da onlara reabilitasiyaları üçün verilmiş sonuncu şansdır.

# Regionumuz son günlərdə: nələr baş verib?

## Erməni radikalları Qarabağdakı müharibə fonunda poqromlara görə 15 il həbs cəzası ilə üzləşirlər

"Moskva-Bakı" platformasında (moscow-baku.ru) İnna Lisovskayanın təqdimatında yayımlanan proqramda regionumuzda gedən proseslər analiz olunub. Verilişdə qeyd olunan məqamları oxucularımıza təqdim edirik.

### Təyyarə parkının genişləndirilməsi

Azərbaycan Prezidenti İlham Əliyev "Boeing Commercial Airplanes" şirkətinin baş icraçı direktoru Stenli Dil-i qəbul edib. Söhbət əsnasında İlham Əliyev Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə yeni hava limanlarının inşası ilə əlaqədar mülki və yük təyyarələri parkını genişləndirmək niyyətində olduğunu və bu mövzuda "Boeing" ilə əməkdaşlıq etməyi planlaşdırdığını bildirdi.

Sitat: "Əminəm ki, uğurlu əməkdaşlığımız davam edəcəkdir. Yük təyyarələrimizi inkişaf etdirməyinizə də kömək etdiniz. İnanıram ki, Azərbaycan hava yüklərinin daşınmasında lider ölkələr sırasındadır"-İlham Əliyev.

Prezident Azərbaycanın nəqliyyat təyyarələri parkının potensialına görə lider ölkələr arasında olduğunu vurğuladı: "Bunu böyük bir nailiyyət hesab edirəm, çünki bölgəmizdə bu qədər güclü yükdaşıma parkına sahib olan bir çox ölkə yoxdur. Bu, bizə kömək edir və əməkdaşlığımıza xidmət edir". Öz növbəsində, şirkətin baş icraçı direktoru Stanley Dil Azərbaycanın hava yükdaşıma sahəsində liderliyinin təqdirəlayiq olduğunu vurğuladı.

"Boeing" və Azərbaycanın yük daşıyıcısı "Silk Way West Airlines" bu gün Azərbaycanın yük daşıyıcısının 5 "Boeing 777 Freighter" təyyarəsi üçün verdiyi sifariş sayəsində gələcəkdə beynəlxalq marşrut şəbəkəsini genişləndirəcəyini açıqladı. Bu, Xəzər bölgəsində və Orta Asiyada bu uzun mənzilli, cüt mühərrikli, ağır yük təyyarələrini əldə edən ilk əməliyyatdır. "Boeing 777 Freighter" təyyarələrinin aviaşirkətin artan yük daşınmasına olan tələbatı ödəməsinə kömək edəcəyi qeyd olunur.

### İqtisadi əməkdaşlığın gücləndirilməsi

Moskvada Rusiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 19-cu iclası keçirildi. İclas hər iki tərəfdəki hökumətlərarası komissiyanın həmsədrlərinin - Rusiya Baş nazirinin müavini Aleksey Overçukun və Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin sədrliyi ilə keçirilib.

Azərbaycan və Rusiya baş nazir müavinləri dövlət başçılarının səyləri sayəsində iki ölkə arasındakı münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafını davam etdirərək strateji tərəfdaşlıq səviyyəsinə çatdığını qeyd etdilər.

Pandemiya şəraitində ikitərəfli münasibətlərin davamlı inkişafı üçün əsas diqqətin 2024-cü ilə qədər Azərbaycan-Rusiya qarşılıqlı fəaliyyətinin əsas istiqamətlərinin inkişafı Planının həyata keçirilməsinə yönəldildiyi vurğulanıb.

Tərəflər bu günə qədər ticarət və investisiya, nəqliyyat potensialının artırılması, rəqəmsallaşma, yenilikçi inkişaf və rəqəmsal iqtisadiyyat, turizm və humanitar sahələrdə 6 yol xəritəsi çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi istiqamətində işlərin uğurla davam etdirildiyini qeyd etdilər. Bu ilin 1-ci rübündə Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 2% artmışdır.

Tərəflər qarşılıqlı investisiyaların həcmindən məmnunluqlarını ifadə edərək, onların artması üçün geniş imkanların olduğunu və pandemiyaya baxmayaraq, keçən il ölkələr arasında aqrar-sənaye kompleksi məhsullarının dövriyyəsinin 6% artdığını bildirdilər. Azərbaycandan Rusiyaya ixrac olunan kənd təsərrüfatı məhsullarının çeşidinin genişləndirilməsinin, mövcud qanunvericilik bazasının möhkəmləndirilməsinin vacibliyi vurğulandı, nəqliyyat və tranzit sahəsində əməkdaşlığın inkişafından, dəmir yolu ilə yükdaşımaların artmasından məmnunluq ifadə edildi. Həmçinin, bu ilin 1-ci rübündə keçən ilin eyni dövrü ilə müqayisədə dəmiryolunda 5%-dən çox, və avtomobil nəqliyyatı ilə yük daşınmasının həcmində isə 11% artıq qeyd edilmişdir.




Bundan əlavə, Şimal-Cənub və Şimal-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin uğurlu işləri qeyd edildi. Xüsusilə, keçən il Şimal-Cənub dəhlizi ilə yük daşımalarının həcminin 2019-cu illə müqayisədə 15% çox olduğu, dəmir yolu yükdaşımalarında artımın 23% -dən çox olduğu, avtomobil nəqliyyatı ilə yük daşımalarının təxminən 14% artdığı qeyd edildi. Bu ilin 1-ci rübündə dəhliz boyunca daşınan malların həcmində də 23,5% artım olmuşdur. 2020-ci ildə Şimal-Qərb beynəlxalq nəqliyyat dəhlizində yük daşımalarının həcminin 11% artdığı da əlavə edildi.

İclasda ticarət, iqtisadi, nəqliyyat, enerji, kənd təsərrüfatı, humanitar sahələrdə əməkdaşlıq perspektivləri müzakirə edildi. Hər iki tərəf Azərbaycan-Rusiya strateji tərəfdaşlığının gücləndirilməsinə, qarşılıqlı faydalı layihələrin davam etdirilməsinə xüsusi əhəmiyyət verdiklərini vurğuladılar.

Bundan əlavə, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində mövcud əməkdaşlıqdan məmnunluqlarını ifadə etdilər və həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi apardılar.

Görüşdən sonra Rusiya və Azərbaycan tərəfləri ölkələr arasında iqtisadi əməkdaşlığa dair Protokol imzaladılar. Əlavə edirik ki, Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuralarının genişləndirilmiş iclası da onlayn keçirilmişdir.

### Məğlubiyyətdə günahkar birini axtarır

Erməni qüvvələri ötən payızda Azərbaycanla 2-ci Qarabağ müharibəsində respublikanın məğlubiyyətində günahkar birini axtarmağa davam edir. Qarabağ separatçılarının başçısı Araik Arutyunyan Ermənistandan narazılığını belə ifadə etdi. O, Qarabağdakı müharibənin nəticələrinin 2020-ci ilin oktyabr ayının əvvəlində ona aydın olduğunu, ancaq Ermənistandakı siyasi qüvvələrin hərbi əməliyyatların erkən dayandırılması ilə bağlı bir fikir birliyinə gələ bilmədiklərini bildirdi. Onun sözlərinə görə, o günlərdə respublikadakı bir çox siyasi qüvvələr müharibənin bitməsini xəyanət hesab edirdilər. Ümumiyyətlə, məğlubiyyətin əsas səbəblərindən bəhs edən Arutyunyan, 1994-cü il may atəşkəsindən sonra Ermənistanın hərbi-siyasi rəhbərliyinin və separatçıların dünya təcrübəsindən lazımi dərsləri almadıqlarını bildirdi. Onun sözlərinə görə, "danışıqlarda üstünlük qazanan səlahiyyətlilər daha sonra əlverişli qərarlar əldə edə bilmədilər".

Bu fonda Qərb Qarabağ zolağında münaqişə tərəflərinə qarşı balanssız mövqe nümayiş etdirməyə davam edir. Beləliklə, xüsusilə ATƏT-in Minsk Qrupunun həmsədri ölkəsi Fransa parlamentinin deputatı Fransua Pupponi ərəfəsində qanunverici orqana Azərbaycanda təxribatçı sayılan sözdə əsirlərin erməni tərəfinə geri dönməsini tələb edən bir qərar layihəsi təqdim etdi.

Bu gün Ermənistan bu məsələdə Qərbdən kömək axtarmağa yeni bir cəhd edir. Beləliklə, Respublika prezidenti Armen Sarkisyan Avropa Şurasının Baş Katibi Mariya Peyçinoviç-Buriç və ATƏT-in Baş Katibi Helqa Mariya Şmidt-ə məhkumların Azərbaycandan qayıtmasına kömək üçün müraciət məktubu göndərdi.

Eyni zamanda, bu ərəfədə Azərbaycan təxribatçıların qohumları ilə əlaqə qura biləcəyi barədə razılığa gəldi. Həbs edilənlər Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə ailələrinə video mesaj ötürüblər. Bunu Qırmızı Xaç ofisinin Ermənistandakı nümayəndəsi Zara Amatuni bəyan edib. Onun sözlərinə görə, belə bir əlaqə vasitəsindən ilk dəfə istifadə olunur. Azərbaycanda saxlanılan şəxslərə qohumları ilə telefon əlaqəsi qurma imkanı verildi və son görüşlər zamanı videolar çəkildi və ailələrinə təhvil verildi.

Xatırladaq ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli Bəyannaməsinin 9 noyabr tarixində imzalanmasından sonra hərbi personala və mülki şəxslərə qarşı terror aktları törətdikləri üçün tutularaq Azərbaycan ərazisinə köçürülmüş erməni hərbçilərindən bəhs edirik.

Azərbaycan Prezidenti İlham Əliyev bütün hərbi əsirlərin Azərbaycan tərəfindən ən qısa müddətdə Ermənistana köçürüldüyünü bildirib, üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycanda həbs olunan eyni erməni hərbçiləri Azərbaycan liderinin qeyd etdiyi kimi, hərbi əsri deyil, təxribatçı və terrorçudurlar.

### Poqrom üçün uzunmüddətli həbs

Keçən ilin sonunda ABŞ-ın Los-Anceles şəhərində bir Türk restoranını Qarabağda davam edən müharibə fonunda talan edən radikalları 15 il həbs gözləyir. Bu işdə həbs olunan 2 ABŞ vətəndaşı- 23 yaşlı Villyam Stepanyan və 23 yaşlı Arutyun Qarri Çalikyan - 6 maddə ilə ittiham olundu. İttiham aktına görə, Villyam Stepanyan 4 noyabr 2020-ci ildə, Qarabağda müharibənin Azərbaycanla Ermənistan arasında getdiyi bir vaxtda, telefonundan Los-Ancelesdə "Türkləri ovlamağa başla" çağırışı ilə mesaj göndərib. O, həmin gün Arutyun Qarri Çalikyan ilə görüşdü. Gənclər bir türk restoranına girərək: "Səni öldürməyə gəldik, səni öldürəcəyik"- deyə qışqıraraq poqroma başladılar.

Radikal ünsürlər restorana 20 000 dollar məbləğində ziyan vurdular, müəssisə müvəqqəti olaraq bağlandı və bu müddət ərzində bir neçə min dollar gəlir itirdi. İndi prokurorluq Stepanyan və Çalikyan üçün 15 il, nifrət cinayətinə görə isə əlavə 5 il həbs tələb edir.

Xatırladaq ki, hadisə ötən il 4 noyabr axşamı Los-Angeles əyalətinin Beverli Hills şəhərində (Kaliforniya ştatı) baş vermişdi. 6-8 nəfərlik bir qrup, "İstanbul Cafe" restoranına hücum edərək müəssisə sahiblərinə xəsarət və restoranın əmlakına böyük ziyan vurub. Təcavüzkarlar Azərbaycan və Türkiyəyə qarşı təhqiramiz ifadələr səsləndiriblər. FTB və Los-Anceles Polis İdarəsinin birgə apardığı istintaqa görə, cinayətdə şübhəli bilinənlərdən biri 4 noyabr 2020-ci ildə Glendal şəhərində tutulub. Bir az sonra ikinci şübhəli Villyam Stepanyan da tutuldu. O, quldurluq, vandalizm və digər cinayətlərdə ittiham olundu. Qrupun qalan hissəsi haqqında heç bir məlumat verilmədi.

Xatırladaq ki, bu yaxınlarda həmin Los-Ancelesin mərkəzində, Erməni Gənclər Federasiyasından və Amerikanın Erməni Milli Komitəsindən olan radikal düşüncəli daşnak ermənilər Azərbaycan bayrağına bükülmüş bir manekeni asdılar. Radikallar fəryadları ilə, əslində, etnik zorakılığa çağırdılar.

Azərbaycan Xarici İşlər Nazirliyi erməni ekstremistlərinin təcavüzkar hərəkətlərinə reaksiya göstərərək son vaxtlar bu işin azərbaycanlılara qarşı nifrət və zorakılığın ilk təzahürü olmadığını xatırladıb. Bənzər hadisələr 2020-ci ilin iyulunda, Los-Ancelesdəki Azərbaycanın Baş Konsulluğunun binası qarşısında radikal erməni-daşnakların bir neçə azərbaycanlının üzərinə hücum edərək onları yaraladığı zaman baş verib.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

AXAR.AZ

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

30 aprel

QARABAĞ AZƏRBAYCANDIR!

## PSJ-nin Ronaldo, Messi, Neymar planı

**PSJ-nin sahibi Nasser Əl Xəlafi yeni mövsüm üçün planı ilə diqqət çəkib. Qol.az "Sport.es"ə istinadən xəbər verir ki, klub rəhbəri futbol dünyasının üç böyük ulduzu - Kriştiano Ronaldo, Lionel Messi və Neymarı eyni komandada oynatmaq istəyir.**




İtaliya mətbuatı "Yuventus"un portuqaliyalı hücumçusunun yeni mövsüm "Mançester Yunayted" və ya PSJ-də oynaya biləcəyini yazıb. Paris təmsilçisinin "Barselona"nın kapitanı L.Messiyə təklif göndərdiyi xəbərləri də mətbuatda yer alıb. Hücumçusu Kilian Mbappe ilə yeni müqavilə imzalamaq barədə razılığa gələ bilməyən PSJ fransalı oyunçunun satışından əldə olunacaq gəlirlə bu planını həyata keçirmək istəyir.

Bildirilib ki, klubun bu planını gerçəkləşdirməsində ən böyük manеə UEFA-nın maliyyə qaydalarıdır. Hazrda heç bir klub bu üç ulduz oyunçunun maaşını ödəyə biləcək maliyyə şərtlərinə sahib deyil. Ancaq bu mövsüm başa çatdıqdan sonra transfer bazarında yaranacaq vəziyyətə uyğun olaraq Nasser Əl Xəlafi bu planını həyata keçirə bilər.

## "Çelsi"dən onun üçün 100 milyon avro



"Çelsi" "İnter"in hücumçusu Romelu Lukakunu transfer etməkdə israrlıdır. Nüfuzlu "The Sun" nəşrinin yazdığına görə, London təmsilçisi 27 yaşlı hücumçunun komandaya qayıtmasında ciddi şəkildə maraqlıdır. Klubun bu transfer üçün təxminən 100 milyon avro ayırmağa hazır olduğu bildirilib. "İnter" rəhbərliyinin növbəti mövsüm üçün liderlərini komandada saxlamağı planlaşdırdığı, ancaq koronavirus pandemiyasının səbəb olduğu çətin maddi vəziyyətin onları bu yay hücumçunu satmağa məcbur edə biləcəyi vurğulanıb.

Qeyd edək ki, Lukaku 2019-cu ilin avqustundan A seriyası təmsilçisində oynayır. Belçikalı futbolçu bu mövsüm 40 oyunda 27 qol vurub və 8 qolun ötürməsini verib. Onun klubu ilə müqaviləsi 2024-cü ilin yayına qədər davam edir.

## Bu qidalar xərçəng hüceyrələrini kimyoterapiyadan güclü öldürür

**Xərçəng müalicəsi ən çətin xəstəliklərdən biri olaraq qalır, bunun üçün təsirli müalicə yoxdur. Eyni zamanda, xəstəliyin təsirli dərmanlarının axtarışına həsr olunmuş çoxsaylı tədqiqatlarda, müxtəlif tədqiqatçılar tərəfindən xərçəng kök hüceyrələrinin məhv edilməsi üçün təsirli sayılan bəzi qida məhsullarından dəfələrlə bəhs olunur.**

Bu, çox vacibdir, çünki məhz kimyəvi terapiyanın xərçəng kök hüceyrələrini öldürməməsi, xərçəng xəstələrinin residivinə və metastaz inkişafına səbəb olduğuna inanılır. Bəzən "ana hüceyrələri" adlandırılan bu hüceyrələr bütün şiş hüceyrələrinin yalnız kiçik bir hissəsini təşkil edir, lakin özlərini bərpa etmək və kimyəvi terapiyaya müqavimət göstərmək qabiliyyətinə malikdirlər. Həm də yeni şiş koloniyaları ayırıb yarada bilərlər, buna görə də onları öldürmək uzun müddətli xərçəngin təsirli bir şəkildə müalicə edilməsinin açarıdır.

Xüsusilə bu hüceyrələri hədəf alan heç bir dərman yoxdur, lakin tədqiqatçılar bu hüceyrələrlə mübarizə aparacaq bir çox təbii maddə aşkar etdilər. SİA xəbər verir ki, "Naturalnews.com" ən yaxşı xərçəng hüceyrə qatilləri olan təbii qidaların siyahısını verib.

### Yaşıl çay

Yaşıl çay Çin tibbində uzun müddətdir müxtəlif xəstəliklərin müalicəsi üçün istifadə olunur, lakin tədqiqatçılar bu yaxınlarda xərçəngin müalicəsi üçün inanılmaz potensialı aşkar etdilər. Beylor Universiteti Tibb Mərkəzinin tədqiqatçıları yaşıl çayın aktiv maddəsi olan EGCG (epigallocatechin-3-galate) xərçəng kök hüceyrələrini öldürdüyünü və bu səbəbdən müalicənin kimyəvi terapiyaya cavab vermədiyi hallarda kömək edə biləcəyini aşkar etdilər. EGCG qara çayda da olsa da, yaşıl çay daha yüksək konsentrasiyaya malikdir.



### Zəncəfil

Klinik araşdırmalar göstərir ki, zəncəfildə olan maddələrdən biri döş xərçəngindəki kök hüceyrələrə qarşı məşhur Taksol dərmanından 10.000 qat daha təsirli olur. 6-Shogaol olaraq bilinən komponent, zəncəfil kökü bişirildikdə və ya qurudulduqda sərbəst buraxılır və xərçəng hüceyrələrini öldürmək üçün lazım olan konsentrasiyası, bu kimi hallarda istifadə edilən ənənəvi dərmanlardan fərqli olaraq sağlam hüceyrələrə zərər vermir.

### Zərdəçal

Qədim Hindistan ədviyyatı zərdəçalın tərkib hissəsi olan Curcumin, toxuma bərpası üçün lazımlı sağlam kök hüceyrələrini təsir riski olmadan seçici olaraq xərçəng kök hüceyrələrini hədəf ala bilir. Bu maddə aşağıdakı xərçəng növlərində təsirli olur;

-döş xərçəngi
-mədəaltı vəzi xərçəngi,
-kolorektal xərçəng
-beyin xərçəngi.

### Üzüm

Üzümün dərisində və toxumlarında olan resveratrol maddəsi xərçəngli kök hüceyrələrinə ölümcül bir zərbə vurur. Bu, Pensilvaniya Universitetinin alimlərinin qənaətidir. Gələcəkdə bu kəşfin günümüzdə ən çox rast gəlinən xərçəng növlərindən biri olan bağırsaq xərçənginin qarşısını almağın öyrənilməsinə kömək edəcəyinə inanırlar. Təcrübə zamanı resveratrol və üzüm toxumu ekstraktı eyni vaxtda alındıqda, təsirləri son dərəcə güclü olub, həm də sağlam hüceyrələrə zərər vermədən.

### Xərçəng kök hüceyrələrini öldürən digər qidalar

Sözügedən qidalar təbiətdəki ən güclü xərçəng əleyhinə dərmanlar olsa da, oxşar təsiri olan bir çox digərləri var. Onlar aşağıdakılardır;

-qaragilə,
-kök,
-qəhvə,
-qreypfrut,
-nanə,
-albalı,
-soğan,
-qara istiot
-kəklikotu.



Xərçəngin öldürülməsinə böyük təsir göstərə biləcək qidaların bolluğu təbiətin zəmanəmizdəki ciddi xəstəliklərin öhdəsindən gəlməyə nə qədər təsirli və təhlükəsiz kömək edə biləcəyini xatırladır. Bir çox həkim mövzunu yaxşı bilmir, digərlərinin bahalı və tez-tez təhlükəli dərmanlarda israr etməyə davam etməsi üçün maliyyə motivləri var. Bu səbəblə üfüqlərinizi genişləndirmək və dərman köməyi ilə yanaşı, ciddi xəstəliklərə qarşı mübarizədə bizim üçün nəyin lazım olduğunu öyrənmək çox vacibdir.

*Elçin Bayramlı*

## ELAN

İbrahimov Vəli Məşədiabdulla oğluna, İbrahimova Gülnaz Mahmud qızına, İbrahimov Fikrət Vəli oğluna məxsus Azərbaycan Respublikasının Torpağın Mülkiyyətə Verilməsinə dair ( JN-014H KOD 00600046) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
***"Azərbaycan" nəşriyyatında çap olunur***
***Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**